# KHAZAR REVIEW

№ 446 Yanvar 2025

AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org




# “XƏZƏR XƏBƏR” JURNALININ 30 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏDBİRİ

# 30TH ANNIVERSARY CELEBRATION OF "KHAZAR REVIEW" JOURNAL



*"Xəzər Xəbər": Baş redaktor Hamlet İsaxanlı*



*"Xəzər Xəbər": Baş redaktor müavini Əlirza Balayev*

Yanvarın 31-də Xəzər Universitetinin Mərmər salonunda “Xəzər Xəbər” jurnalının 30 illiyinə həsr olunmuş yubiley tədbiri keçirildi. Tədbirdə universitetin rəhbərliyi və Elmi Şura üzvləri, yurnalın redaksiya heyətinin üzvləri, sabiq və hazırkı əməkdaşları, “Dünya” məktəblərinin rəhbərliyi və əməkdaşları, Azərbaycan Mətbuat Şurasınnı rəhbərliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əməkdaşları, Lənkəran-Astara Regional Təhsil İdarəsinin rəhbərliyi iştirak edirdilər.

*(Ardı səh.6-da)*



*"Xəzər Xəbər": əməkdaşlar Əfruz Fərzəliyeva, Günel Əkbərova*



*Multimedia Mərkəzi: Direktor Natella Barkaya;*
*"XəzərXəbər": sabiq əməkdaş Razim Məmmədli*

On January 31, a jubilee celebration marking the 30th anniversary of "Khazar Review" journal was held in the Marble Hall of Khazar University. The event was attended by university leadership and Scientific Council members, journal editorial board members, former and current staff, leadership and staff of "Dunya" schools, leadership of Azerbaijan Press Council, employees of Azerbaijan National Academy of Sciences (ANAS), and leadership of Lankaran-Astara Regional Education Department.

(*To be continued page 6*)



*Xəzər Universitetinin mətbəəsi: Direktor Rüfət İsayev (soldan üçüncü),*
*əməkdaşlar:Aynurə Xəlilova, Mehri Əbilova, Azər Yunusov*





*"Xəzər Xəbər": Redaksiya heyətinin üzvləri İsaxan İsaxanlı, Knyaz Aslan, İsmixan Yusubov*

# İÇİNDƏKİLƏR

“Xəzər Xəbər” jurnalının 30 illiyinə həsr olunmuş yubiley tədbiri....2
Azərbaycan Mətbuat Şurasının "Xəzər Xəbər" jurnalının 30 illiyi münasibətilə təbriki....14
"Xəzər Xəbər" jurnalı Azərbaycan Mətbuat Şurasının diplomu ilə təltif edilmişdir....15
Seminar: “Qaranlıqdan işığa: emosional dəstək və psixi rifah”....16
PICASP layihəsinin son görüşü....17
“Mədəniyyət körpüsü – Şuşadan Naxçıvana” adlı sərgi....18
Əməkdaşlar və tələbələr I Bakı Kitab Festivalında....20
Xəzər Universiteti ilə "Təhsil və Təlim Xidmətləri" MMC arasında əməkdaşlıq davam edir....22
“İqlim dəyişiklıyi və dəyişən iqtisadi siyasətlər: problem və perspektivlər” mövzusunda panel müzakirə....24
“Son mənzili İstanbul olan azərbaycanlılar” kitabının təqdimatı....26
“Erkən nikahın psixoloji və fizioloji fəsadları” mövzusunda seminar....29
İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi şeir qiraət müsabiqəsi başa çatdı....30
Xəzər Universitetinin tələbəsinin tədqiqat işi beynəlxalq elmi konfransda yüksək qiymətləndirilib....33
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....36
*Hamlet İsaxanlı*. Baş həkimİ (*hekayə*); Görüşlərimiz davam edir... (*lirik esse*); Zahman (*bəhri-təvil*); Sən məni niyə sevdin? (*şeir-zarafat*)....40
Xəzər Universitetinin nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə....52
Hasan Kalyoncu Universitetinin müəllimi “Xəzər”də....57
Şimali Kiprin Doğu Akdeniz Universitetinin nümayəndə heyəti "Xəzər"də....58
Türkiyənin Hasvet Medical Group Şirkəti ilə görüş....59
Mərakeşin İbn Tofail Universitetinin nümayəndəsi "Xəzər"də....62
Dr. Muhammad İmran İordaniyanın Yərmuk Universitetində Xəzər Universitetini təmsil edib....63
Erasmus+ DIRNA layihəsi çərçivəsində İnstitusional repozitoriyanın təqdimatı....65
Xəzər Universiteti tələbələrinin Azərbaycan dilinə tərcümə etdiyi Litva filmi “Emiliya: azadlıq carçısı” nümayiş olunub....66
Qanlı Yanvarın 35 illiyi ilə bağlı anım tədbiri....67
Siyasi elmlər və fəlsəfə departamentinin müdiri STEM Analitik Mərkəzində....68
Xəzər Universitetində Erasmus+ proqramı çərçivəsində seçilmiş tələbələr üçün səfərqabağı məlumatlandırma sessiyası....70
İstanbul Aydın Universitetinin müəllimi “Xəzər”də....72
DIRNA layihəsi çərçivəsində “İnstitusional repozitoriyanın icra planı” mövzusunda vebinar....74
“2025-ci il Vergi Məcəlləsində Dəyişikliklər” mövzusunda seminar....74
“Xidmət öncəsi müəllim təlimi” mövzusunda seminar....76
Müəllimlər üçün təlim....76
Departament müdiri beynəlxalq konfransda....77

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor**:
Hamlet İsaxanlı

**Baş redaktor müavini**:
Əlirza Balayev

**Foto**:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

30th Anniversary Celebration of "Khazar Review" Journal ......2
Congratulatory Letter from Azerbaijan Press Council on the 30th Anniversary of "Khazar Review" Journal ......14
"Khazar Review" journal has been Awarded a Diploma by the Azerbaijan Press Council......15
Seminar: "From Darkness to Light: Emotional Support and Mental Well-being"......16
Final Meeting of the PICASP Project ......17
"Cultural Bridge - From Shusha to Nakhchivan" Exhibition......18
Staff and Students at the First Baku Book Festival ......20
Cooperation Continues between Khazar University and "Education and Training Services"LLC......22
A Panel Discussion was held on the Topic of "Climate Change and Changing Economic Policies: Problems and Prospects" ......24
Presentation of the book "Azerbaijanis Whose Final Destination is Istanbul" ......26
Seminar on "Psychological and Physiological Consequences of Early Marriage" ......29
Poetry Recitation Competition Organized by the Department of English Language and Literature Concludes......30
Khazar University Student's Research Work Highly Appreciated at International Scientific Conference ......33
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*)......36
*Hamlet Isakhanli*. "Chief Doctor" (*story*); "Our Meetings Continue..." (*lyrical essay*); "Zahman"(*rhymed prose*); "Why Did You Love Me?" (*poem-humorous*) (*in Azerbaijani*)......40
Khazar University Delegation Conducts Business Visit to Kingdom of Saudi Arabia......52
Hasan Kalyoncu University Lecturer at Khazar ......57
Eastern Mediterranean University Delegation from North Cyprus Visits Khazar University......58
Meeting with Hasvet Medical Group from Türkiye ......59
Representative from Ibn Tofail University of Morocco at Khazar ......62
Dr. Muhammad Imran Represents Khazar University at Yarmouk University, Jordan......63
Presentation of Institutional Repository within Erasmus+ DIRNA project......65
Lithuanian Film "Emilia" Translated into Azerbaijani by Khazar University Students Premieres......66
Commemoration Ceremony for the 35th Anniversary of Black January......67
Head of the Department of Political Science and Philosophy at the STEM Analytical Center......68
Pre-departure Orientation Session for Erasmus+ Exchange Students at Khazar University......70
Istanbul Aydın University Lecturer at "Khazar"......72
Webinar on "Institutional Repository Implementation Plan" within DIRNA Project ......74
A Seminar on "Tax Code Amendments 2025"......74
Seminar on "Pre-service Teacher Training"......76
Training for Teachers......76
Head of Department at International Conference ......77

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

# “XƏZƏR XƏBƏR” JURNALININ 30 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏDBİRİ

# 30TH ANNIVERSARY CELEBRATION OF "KHAZAR REVIEW" JOURNAL



Qulu Məhərrəmli

Tədbirin aparıcısı, “Dünya” məktəbinin əməkdaşı Afaq Qəmbərova iştirakçıların nəzərinə çatdırdı ki, “Xəzər Xəbər” jurnalı 1995-ci ilin yanvarından etibarən Xəzər Universitetinin təsisçiliyi ilə mətbuat aləminə daxil olmuş və fasiləsiz nəşr olunur. Ötən illər ərzində axtarışlara meyilli inkişaf yolu keçən jurnal Azərbaycan, türk, rus

The event host, Afag Gambarova from "Dunya" school, informed participants that "Khazar Review" journal has been continuously published since January 1995 under the founding of Khazar University. Over the years, the journal evolved from publishing articles in Azerbaijani, Turkish,




Rəhim Rəhimli



"Xəzər"in əməkdaşları: Günel Bahəddinova, Fəxrəndə Əfəndiyeva, Fəridə Tatardar, Lyudmila Sotova

və ingilis dillərində məqalələr çap edən mətbu nəşrə, artıq on beş ilə yaxındır ki, ikidilli jurnala çevrilmiş, çüzi istisna ilə Azərbaycan dilindəki yazılar ingilis dilinə tərcümə edilərək, nəşr olunur. Ümumilikdə jurnal Xəzər Universitetinin kamil salnaməsini yaradaraq, gələcək onilliklərə yadigar qoyur.

Sonra universitetin Multimeda Mərkəzinin jurnalın keçdiyi yolu əks etdirən fotolardan ibarət hazırladığı çarx nümayiş olundu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, "Xəzər Xəbər" jurnalının təsis olunduğu vaxtdan bu günədək baş redaktoru Hamlet İsaxanlı çıxış etdi. "Xəzər Xəbər"in ilk qəzet nömrəsinin nümayişi ilə çıxışına başlayan H. İsaxanlı sonradan qəzetin jurnala çevrilməsindən və inkişaf yolundan danışdı. Qeyd etdi ki, jurnal hazırda

(*Ardı səh.8-də*)



*Hamlet İsaxanlı, İsmixan Yusubov*



*"Xəzər"in əməkdaşları: Dilbər Zeynalova, Mələk Kərimova, Lalə Atamova*




*İsmixan Yusubov, Əlövsət Əmirbəyli, İsaxan İsaxanlı, Hamlet İsaxanlı*

Russian, and English languages to becoming a bilingual publication for nearly fifteen years, with most Azerbaijani articles being translated into English. The journal serves as a comprehensive chronicle of Khazar University for future decades.

The university's Multimedia Center presented a video showcasing photographs depicting the journal's journey.

Hamlet Isakhanli, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, and editor-in-chief of "Khazar Review" journal since its establishment, de-

(*To be continued page 8*)




*İsaxan İsaxanlı, "Xəzər Xəbər"in sabiq əməkdaşları: Razim Məmmədli, Mirrafiq Əbdülrəhimov, Zakir Nəbiyev, Knyaz Aslan, Cabir Məmmədli, Afaq Qəmbərova*

çoxsaylı rubrikaları vasitəsilə universitetin tədris və tələbə mühitini, beynəlxalq əlaqələrini, ölkə və xarici mediada yer almasını və s. fəaliyyətini işıqlandırmaqla "Xəzər"in dolğun həyatını əks etdirir. Natiq jurnalın ölkə təhsili və elmi ilə əlaqələrindən də danşaraq qeyd etdi ki, akademik İsa Həbibəyli təxminən 15 il əvvəl Naxçıvan Dövlət Universitetinin rektoru ikən "Xəzər Xəbər" jurnalının təşəbbüsünü dəstəkləyərək, Naxçıvan Dövlət Universitetində "Xəzər Xəbər" jurnalının bürosunun açılmasına göstəriş verdi və büro bu günədək fəaliyyət göstərir.

livered a speech. Starting his speech with the presentation of the first newspaper issue of "Khazar Review," H. Isakhanli spoke about the newspaper's transformation into a journal and its development path. He noted that the journal currently reflects the full life of "Khazar" through its numerous rubrics, covering the university's educational and student environment, international relations, media coverage both domestically and internationally, and other activities. Speaking about the journal's connections with national education and science, the speaker mentioned that Academic Isa Habibbayli, when he was the rector of Nakhchivan State University about 15 years ago, supported the initiative of "Khazar Review" journal by ordering the establishment of the journal's bureau at Nakhchivan State University, which continues to operate to this day. This allows both coverage of the university's life in several pages of each issue and promotes the journal in Nakhchivan. When Isa Habibbayli moved to Baku about 11 years ago and was appointed director




*Knyaz Aslan, Aynurə Xəlilova, Mehri Əbilova, Rüfət İsayev*



*"Xəzər"in əməkdaşları: Cavid Ocaqi, Cəmalə Eldarova, Zülfiyyə Sadıqova*

Bununla həm jurnalın hər nömrəsinin bir neçə səhifəsində universitetin həyatı işıqlandırılır, həm də jurnal Naxçıvanda tanınır. İsa müəllim təxminən 11 il əvvəl Bakıya gəlib Akademiyanın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna direktor təyin edildən sonra, redaksiyanın heç gözləmədiyi halda, jurnalın institutda bürosunun açılmasını təklif etdi və hazırda jurnalın hər nömrəsinin bir neçə səhifəsində institutun, bəzən akademiyanın tədbirləri haqqında yazılar dərc olunur. H. İsaxanlı qeyd etdi ki, belə təcrübəni genişləndirmək də olar.

(*Ardı səh.10-da*)

of the Institute of Literature named after Nizami Ganjavi at the Academy, he unexpectedly proposed opening a bureau of the journal at the institute, and currently, several pages of each issue publish articles about the institute's and sometimes the academy's events. H. Isaxanli noted that such practice could be expanded.

It was mentioned that after the editor-in-chief signs "Khazar Review" journal for publication, it is immediately presented to readers on its website. This operational work is carried out in the Internet

(*To be continued page 10*)



*Xatimə Nadiri, Səbinə Əliyeva, Məhəmməd Nuriyev, Natella Barkaya, Leyla Mustafayeva, Ülkər Hüseynli*



*Elmira Cahangirli, Cavanşir Quliyev, Vəfa Aslanova, Zamirə Qurbanova*

Qeyd olundu ki, “Xəzər Xəbər” jurnalı baş redaktor tərəfindən çapa imzalandıqdan sonra dərhal özünün internet saytında oxuculara təqdim olunur. Bu operativ iş İnternet media şöbəsində icra olunur. Həmçinin, nəzərə çatdırıldı ki, Xəzər Xəbər jurnalının redaksiyası jurnalın nəşrindən əlavə universitetin vebsaytını da idarə edir. Universitetin əməkdaşları tərəfindən göndərilən xəbərlər redaksiyada hazırlanıb, ildə 800-900 yüz olmaqla universitetin saytında yerləşdirilir. Bu işlə İnformasiya texnologiyaları şöbəsi məşğul olur.

Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, əməkdar jurnalist, Prezident təqaüdçüsü, Prof. Qulu Məhərrəmli çıxış edərək, şuranın təbrik məktubunu oxudu, jurnalın Azərbaycan Mədəniyyətinin, elminin, elmi-pedaqoji mühitinin peşəkar təbliğinə, sahə jurnalistikasının inkişafına yönələn xidmətlərinə görə və 30 illik yubileyi münasibəti ilə şuranın diplomu ilə təltif olunduğunu bildirdi və təbrik məktubunu, diplomu H. İsaxanlıya təqdim etdi.

Tədbirdə uzun illər “Xəzər Xəbər” jurnalının baş redaktor müavini işləmiş şair, alim-şair, hazırda jurnalın redaksiya heyətinin üzvü, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, jurnalın redaksiya heyətinin üzvü, BDU-nun professoru İsmixan Yusubov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin rəis müavini Rəhim Rəhimli çıxış etdilər.

Çıxışlardan sonra “Xəzər Xəbər” yurnalının fəaliy-



*Ağahüseyn Şükürov, Qulu Məhərrəmli, Gülnar Səma*

Media Department. It was also noted that besides publishing the journal, the editorial office of Khazar Review also manages the university's website. News sent by university staff is prepared in the editorial office and posted on the university's website, amounting to 800-900 articles annually. The Information Technology Department handles this work.

Professor Gulu Maharramli, member of the Board of Directors of Azerbaijan Press Council, honored journalist, Presidential scholar, spoke and read the council's congratulatory letter, announcing that the journal was awarded the council's diploma for its services in professional promotion of Azerbaijani culture, science, scientific-pedagogical environment, development of field journalism, and on the occasion of its 30th anniversary, and presented the congratulatory letter and diploma to H. Isaxanli. Poet and scholar Knyaz Aslan, who worked as deputy editor-in-chief of "Khazar Review" journal for many years and is currently a member of the journal's editorial board and head of the Editorial-Publishing Department at BSU, Professor Ismikhan Yusubov, member of the journal's editorial board, and Rahim Rahimli, deputy head of Lankaran-Astara Regional




*Ülkər Kərimova, Nigar Buqayeva, Əlirza Balayev, Lamiyə Piriyeva, Mədinə Karahan*

yətində əməyi olanlar təşəkkürnamə ilə təltif edildilər:

Baş redaktor – Hamlet İsaxanlı;

Redaksiya heyətinin üzvləri – Alla Axundova, İsa Həbibbəyli, İsaxan İsaxanlı, İsmixan Yusubov, Knyaz Aslan;

İctimai əlaqələr və media üzrə direktorluq – Əlövsət Əmirbəyli;

“Xəzər Xəbər”in Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bürosu – Ağahüseyn Şükürov, Gülnar Səma (AMEA);

(*Ardı səh.12-də*)

Education Department, also spoke at the event.

Following the speeches, contributors to "Khazar Review" journal were awarded certificates of appreciation, including:

Editor-in-Chief – Hamlet Isakhanli;

Editorial Board Members – Alla Akhundova, Isa Habibbeyli, Isakhan Isaxanli, Ismikhan Yusubov, Knyaz Aslan;

Public Relations and Media Directorate – Alovsat Amirbayli;

Khazar Review Bureau at the Nizami Ganjavi

(*To be continued page 12*)




*Əlövsət Əmirbəyli, Alik Əlioğlu, Nicat Abdullayev*




*Əlirza Balayev, Günel Əkbərova, Əfruz Fərzəliyeva, Hamlet İsaxanlı*

Sabiq əməkdaşlar –Vahid Ömərli, Mirrafiq Əbdülrəhimov, Zakir Nəbiyev, Afaq Qəmbərova, Razim Məmmədli, Cabir Məmmədli, Ceyhun İsayev;

Mətbəə əməkdaşları – Rüfət İsayev, Azər Yunusov, Aynurə Xəlilova, Mehri Əbilova;

Multimedia Mərkəzi – Natella Barkaya, Səbinə Əliyeva, Leyla Mustafayeva, Xatimə Nadiri, Ülkər Hüseynli;

İngilis dili və ədəbiyyatı departamenti – Firəngiz Nəsirova;

Tərcüməçilər – Vəfa Aslanova, Gülcan Qulaxmed, Zamirə Qurbanova, Elmira Cahangirli;

"Dünya" məktəbinin əməkdaşları – Mədinə Karahan, Ülkər Kərimova, Nigar Buqayeva, Lamiyə Piriyeva;

İnternet media şöbəsi – Alik Əlioğlu;

İnformasiya texnologiyaları şöbəsi – Nicat Abdullayev;

"Xəzər-Xəbər"in hazırkı əməkdaşları – Əlirza Balayev, Əfruz Fərzəliyeva, Günel Əkbərova.

Təşəkkürnamələri Hamlet İsaxanlı, Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyev, İsaxan İsaxanlı, Qulu Məhərrəmli, Xəzər Universitetinin professoru, Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev, İsmixan Yusubov, Knyaz Aslan, "Xəzər "Xəbər" jurnalının baş redaktor müavini Əlirza Balayev təqdim etmişlər

Yubiley tədbiri konsert proqramı ilə müşayiət olundu. Konsert proqramını universitetin Musiqi və in-

Institute of Literature – Agahuseyn Shukurov, Gulnar Sema (ANAS);

Former Employees – Vahid Omarli, Mirrafig Abdulrahimov, Zakir Nabiyev, Afag Gambarova, Razim Mammadli, Jabir Mammadli, Jeyhun Isayev;

Printing Staff – Rufat Isayev, Azer Yunusov, Aynura Khalilova, Mehri Abilova;

Multimedia Center – Natella Barkaya, Sabina Aliyeva, Leyla Mustafayeva, Khatima Nadiri, Ulkar Huseynli;

English Language and Literature Department – Firangiz Nasirova;

Translators – Vafa Aslanova, Guljan Gulakhmed, Zamira Gurbanova, Elmira Jahangirli;

Employees of the "Dunya" school – Medina Karahan, Ulkar Karimova, Nigar Bugayeva, Lamiya Piriyeva;

Internet media department – Alik Alioglu;

Information technology department – Nijat Abdullayev;

Current employees of "Khazar Review" – Alirza Balayev, Afruz Farzaliyeva, Gunel Akbarova.

Letters of appreciation were presented by Hamlet Isakhanli, Vice-Rector for Academic Affairs of Khazar University Mahammad Nuriyev, Isakhan Isakhanli, Gulu Maharramli, Professor of Khazar University, Honored Artist, composer Javanshir Guliyev, Ismikhan Yusubov, Knyaz Aslan, Deputy Editor-in-Chief of "Khazar "Review" journal Alirza Balayev.



*Meri Çeminava*

cəsənət departamentinin müdiri, Azərbaycanın əməkdar müəllimi, tanınmış pianoçu Zülfıyyə Sadıqovanın rəhbərliyi və Meri Çeminava`nın dirijorluğu ilə Xəzər Universitetinin Kamera orkestri təqdim etdi. Solist Xəzər Universitetinin müəllimi, tələbələrdən ibarət xor kollektivinin rəhbəri Məhsəti Azaflı idi.

Yubiley tədbiri xatirə şəkillərinin çəkilişi ilə başa çatdı.

The jubilee celebration featured a concert program performed by Khazar University's Chamber Orchestra under the direction of Zulfiyya Sadigova, head of the Music and Fine Arts Department, and conducted by Meri Cheminava. The soloist was Mahsati Azafli, university instructor and leader of the student choir.

The event concluded with a commemorative photo session.



AZƏRBAYCAN MƏTBUAT ŞURASI İCTİMAİ BİRLİYİ

Bakı şəhəri AZ1106, Məmməd Araz küçəsi, 4, Tel: (+994 12) 441 35 92/94/96, Faks: (+994 12) 441 35 30, E-mail: info@presscouncil.az

№008 28.12.2025

"Xəzər Xəbər" jurnalının baş redaktoru
cənab Hamlet İsaxanlıya

**Hörmətli Hamlet müəllim,**

Azərbaycanın dünyaya, beynəlxalq elm məkanına tanıdılması mediamızın zamana, illərə sığmayan peşə borcu, vətəndaşlıq məsuliyyəti kimi daim aktuallığını saxlayır. Həqiqətlərimizin beynəlxalq ictimaiyyətə çatdırılmasını davamlı prosesə çevirmək isə sözün əsl mənasında fədakarlıqdır. Bu fədakar missiyanı həyata keçirən media orqanlarımızdan biri də 30 illik yubileyini qeyd edən "Xəzər Xəbər" jurnalıdır.

"Xəzər Xəbər" tariximizin, elmimizin, mədəniyyətimizin, adət-ənənələrimizin, iqtisadi imkanlarımızın və dövlətimizin siyasətinin yorulmaz təbliğatçısıdır. Mətbu orqanın dərin mülahizə və mükalimələrə əsaslanan fundamental materiallarını, dəyərli imzalarının aktual təqdimatlarını gözəl tərtibat və sanballı tiraj tamamlayır. Tam əminliklə demək olar ki, jurnal sahəvi media orqanlarının sırasında son dərəcə dəyərli məxəzdir. Yüksək vətəndaşlıq xidmətinin dolğun nümunəsini yaratmış "Xəzər Xəbər"dən danışmaq ona görə xoşdur ki, jurnal özündə müstəqilliyimizin 30 ilinin fəxr salnaməsini də yaşadır.

**Hörmətli Hamlet müəllim,** "Xəzər Xəbər"in ötən müddətdə keçdiyi yol onun gələcəyi üçün etibarlı təminatdır. Sizi və rəhbərlik etdiyiniz kollektivin hər bir üzvünü nəşrin 30 illik yubileyi münasibəti ilə təbrik edir, geniş diapazona malik fəaliyyətinizin yeni-yeni yaradıcılıq uğurları ilə zənginləşməsini arzulayırıq.

Hörmətlə: Azərbaycan Mətbuat Şurasının sədri
Rəşad Məcid

## Congratulatory Letter from Azerbaijan Press Council on the 30th Anniversary of "Khazar Review" Journal

**To Mr. Hamlet Isakhanli**
Editor-in-Chief of "Khazar Review" Journal

The introduction of Azerbaijan to the world and international scientific community remains a timeless professional duty and civic responsibility of our media. Transforming the delivery of our truths to the international community into a continuous process is, in the truest sense, an act of dedication. "Khazar Review" journal, which is celebrating its 30th anniversary, is one of the media outlets carrying out this dedicated mission.

"Khazar Review" is a tireless advocate of our history, science, culture, traditions, economic capabilities, and state policy. The publication's fundamental materials, based on deep contemplation and dialogue, along with relevant presentations by valuable contributors, are complemented by excellent design and substantial circulation. It can be said with complete certainty that the journal is an extremely valuable source among specialized media outlets. It is pleasant to speak about "Khazar Review," which has created a comprehensive example of high civic service, because the journal also embodies the proud chronicle of 30 years of our independence.

Dear Hamlet Isakhanli, the path that "Khazar Review" has traveled over the past period is a reliable guarantee for its future. We congratulate you and every member of your team on the publication's 30th anniversary and wish for your wide-ranging activities to be enriched with new creative achievements.

Respectfully,
**Rashad Majid**
**Chairman of Azerbaijan Press Council**

Azərbaycan
Mətbuat Şurası
MŞ
Azerbaijan
Press Council

# DİPLOM

## "Xəzər Xəbər" jurnalı - 30

**Azərbaycan mədəniyyətinin, elminin, elmi-pedaqoji mühitinin peşəkar təbliğinə, sahə jurnalistikasının inkişafına yönələn xidmətlərinə görə və 30 illik yubileyi münasibəti ilə təltif edilir.**

**Rəşad Məcid**
*Azərbaycan Mətbuat Şurasının sədri*

**Bakı, 31 yanvar 2025-ci il**



*Mələk Kərimova*

## SEMİNAR: "QARANLIQDAN İŞIĞA: EMOSİONAL DƏSTƏK VƏ PSİXİ RİFAH"

Dekabrın 19-da Xəzər Universitetinin Psixologiya departamenti və Psixologiya klubunun birgə əməkdaşlığı ilə "Qaranlıqdan işığa: emosional dəstək və psixoloji rifah" mövzusunda açıq seminar keçirildi. Seminar universitetin Psixologiya departamentinin koordinatoru və Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimovanın təqdimatında baş tutdu. Mələk Kərimova emosional dəstəyin insan rifahında və intiharın qarşısının alınmasında nə qədər əhəmiyyətli olduğunu vurğuladı. İştirakçılara intihar riski ilə bağlı erkən xəbərdarlıq siqnalları, emosional sağlamlığın qorunması yolları və dəstək mexanizmləri barədə ətraflı məlumat verildi.

Tədbir zamanı həm tələbələr, həm də cəmiyyətin müxtəlif təbəqələrindən olan iştirakçılar mövzu ilə bağlı öz fikirlərini bölüşdülər və sual-cavab sessiyasında fəal iştirak etdilər. Müzakirələr iştirakçıların yalnız nəzəri biliklər deyil, həm də real həyatda tətbiq edə biləcəkləri faydalı məsləhətlər əldə etməsinə imkan yaratdı. Seminarda iştirakçılarla birlikdə psixi rifahla bağlı praktiki çalışmalar aparıldı.

Seminarın sonunda Mələk Kərimova hər bir şəxsin emosional rifahının qorunmasının cəmiyyət üçün vacib olduğunu qeyd edərək, psixoloji dəstək sistemlərinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı.

## SEMINAR: "FROM DARKNESS TO LIGHT: EMOTIONAL SUPPORT AND MENTAL WELL-BEING"



On December 19, an open seminar on "From Darkness to Light: Emotional Support and Mental Well-being" was held through the collaboration of Khazar University's Psychology Department and Psychology Club. The seminar was presented by Malak Karimova, coordinator of the university's Psychology Department and director of the Khazar Psychological Service Center. Malak Karimova emphasized the importance of emotional support in human well-being and suicide prevention. Participants were provided with detailed information about early warning signs of suicide risk, ways to maintain emotional health, and support mechanisms.

During the event, both students and participants from various segments of society shared their thoughts on the topic and actively participated in the question-and-answer session. The discussions enabled participants to gain not only theoretical knowledge but also practical advice that they could apply in real life. Practical exercises related to mental well-being were conducted with participants during the seminar.

At the end of the seminar, Malak Karimova noted that protecting each person's emotional well-being is important for society and emphasized the significance of developing psychological support systems.

## PICASP LAYİHƏSİNİN SON GÖRÜŞÜ

Dekabrın 19-da Xəzər Universitetinin Mərmər zalında Erasmus+ PICASP layihəsinin yekun hesabat görüşü keçirildi.

Tədbir Xəzər Universitetinin rektoru, Dos. İradə Xəlilovanın açılış nitqi ilə başladı. Sonra Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva universitet haqqında təqdimatla çıxış etdi. İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva PICASP layihəsi haqqında ümumi məlumat verdi və 4 il ərzində Xəzər Universiteti İnkişaf Mərkəzinin layihə çərçivəsində gördüyü işlər haqqında ətraflı danışdı.

Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədovun "Azərbaycanın Paleolit düşərgələri" və Dr. Ramin Fətullayevin "Erkən Sovet hakimiyyəti dövründə Azərbaycanın mədəni irsi" mövzusunda təqdimatları maraqla dinlənildi.

Turizm işinin təşkili ixtisasının bir sıra tələbə və məzunları layihə çərçivəsində alınan proqramlarla keçirilən dərs barədə öz təcrübələrini bölüşmüş və öz startap ideyaları ilə çıxış etmişlər. Tədbirin sonunda qonaqlara hədiyyələr verildi və kollektiv şəkillər çəkildi..

Görüşün 2-ci hissəsi Azərbaycan Turizm Universitetində keçirildi.

## FINAL MEETING OF THE PICASP PROJECT

On December 19, the final report meeting of the Erasmus+ PICASP project was held in the Marble Hall of Khazar University.

The event began with an opening speech by Assoc. Prof. Irada Khalilova, Rector of Khazar University. Then, Fatima Valiyeva from Khazar University's International Relations Department gave a presentation about the university. Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management, provided general information about the PICASP project and detailed the work done by the Khazar University Development Center within the project framework over the 4 years.

Presentations by History and Archaeology Department faculty members Dr. Yagub Mammadov on "Paleolithic Settlements of Azerbaijan" and Dr. Ramin Fatullayev on "Cultural Heritage of Azerbaijan during Early Soviet Rule" were listened to with great interest. Several students and graduates of Tourism Management shared their experiences about classes conducted with programs acquired through the project and presented their startup ideas. At the end of the event, gifts were presented to the guests and group photos were taken.

The second part of the meeting was held at Azerbaijan Tourism University.



## DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ

Dekabrın 19-da İqtisadiyyat və menecment departamentində doktorantura tələbəsi Coşqun Məmmədovun "Azərbaycanda alternativ və bərpa olunan enerji istehsalı müəssisələrinin inkişafının stimullaşdırılması" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilmişdir. Doktorant tərəfindən mövzunun aktuallığı, məqsəd və tədqiqat nəticələri ətraflı şəkildə izah olunmuşdur.

Müzakirədə universitetin professor-müəllim heyəti, elmi rəyçilər və departamentin əməkdaşları iştirak etmişlər. İştirakçılar tərəfindən tədqiqat işinin aktuallığı, elmi yeniliyi və praktiki əhəmiyyəti qeyd edilmiş, mövzu ilə bağlı müzakirələr aparılmışdır. Müzakirənin sonunda dissertasiya işi yekdilliklə müsbət qiymətləndirilmişdir.

İlkin müzakirənin nəticələrinə əsasən dissertasiya işinin növbəti mərhələyə təqdim olunması qərara alınmışdır.

## DISSERTATION PRELIMINARY DISCUSSION

On December 19, the Department of Economics and Management at Khazar University hosted the preliminary discussion of doctoral candidate Joshgun Mammadov’s dissertation titled "Stimulating the Development of Alternative and Renewable Energy Production Enterprises in Azerbaijan." During the session, the candidate provided a comprehensive overview on the relevance of the topic, the research objectives, and the findings of the study.

The discussion was attended by the university's faculty, academic reviewers, and departmental staff. Participants emphasized the significance, scientific innovation, and practical implications of the research, engaging in constructive dialogue on the subject. At the conclusion of the session, the dissertation was unanimously evaluated positively. Based on the outcomes of the preliminary discussion, the dissertation has been approved to proceed to the next stage of evaluation.

## “MƏDƏNİYYƏT KÖRPÜSÜ – ŞUŞADAN NAXÇIVANA” ADLI SƏRGİ

## "CULTURAL BRIDGE - FROM SHUSHA TO NAKHCHIVAN" EXHIBITION



Xəzər Universiteti Memarlıq və dizayn departamentinin tələbələri tərəfindən Dekabrın 20-də universitetin Neftçilər kampusunda Şuşa şəhərinin 2024-cü il üçün “İslam Dünyasının Mədəniyyət Paytaxtı” elan edilməsinə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş rəsmlərdən ibarət “Mədəniyyət körpüsü

On December 20, an exhibition titled "Cultural Bridge - From Shusha to Nakhchivan" was displayed at the Neftchilar campus of Khazar University by students of the Department of Architecture and Design. The exhibition was dedicated to the declaration of Shusha city as the "Cultural Capital of the Islamic World" for 2024 and the 100th



– Şuşadan Naxçıvana" adlı sərgi nümayiş etdirilmişdir. Sərgi tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq və qeyd olunan əlamətdar hadisələrin mədəni əhəmiyyətini vurğulamaq məqsədini daşıyırdı.

Tədbirdə Şuşa şəhərinə və Naxçıvan Muxtar Respublikasına həsr olunmuş əsərlər yer almışdır. Mövzu həm tarixi, həm də mədəni baxımdan önəm daşıyaraq, iştirakçılarda dərin maraq doğurmuşdur.





anniversary of the Nakhchivan Autonomous Republic. The exhibition aimed to reveal the creative potential of students and emphasize the cultural significance of these notable events.

The event featured works dedicated to the city of Shusha and the Nakhchivan Autonomous Republic. The theme, carrying both historical and cultural significance, generated deep interest among the participants.



# ƏMƏKDAŞLAR VƏ TƏLƏBƏLƏR I BAKI KİTAB FESTİVALINDA

# STAFF AND STUDENTS AT THE FIRST BAKU BOOK FESTIVAL

*Aytac Misgərli, Samirə Orucova (Xəzər Universiteti)*

Dekabrın 19-22-də Bakı İdman Sarayında "Azərbaycan Nəşriyyatçılar Assosiasiyası" İctimai Birliyi (ANAİB) və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə I Bakı Kitab Festivalı keçirilib. Dekabrın 20-də Xəzər Universitetinin əməkdaşları və tələbələri festivalda olublar.

Festival "Yeni ilə yeni kitablarla!" şüarı altında keçirilib. Burada ANAİB üzvləri də daxil olmaqla 30-dan çox nəşriyyat təmsil olunub.

The First Baku Book Festival was held at the Baku Sports Palace from December 19-22, organized by the "Azerbaijan Publishers Association" Public Union (APAPU) and the Ministry of Culture. On December 20, Khazar University staff and students visited the festival.

The festival was held under the slogan "New Year with New Books!" More than 30 publishing houses, including APAPU members, were represented at the event.



Festivalın açılış mərasimində ANAİB-nin sədri Şamil Sadiq festivala hazırlıq prosesi barədə ətraflı danışıb. Xalq şairi Sabir Rüstəmxanlı, Türkiyə Üs-

At the festival's opening ceremony, APAPU chairman Shamil Sadiq spoke in detail about the preparation process. People's Poet Sabir Rustamkhanli,

küdar Universitetinin rektoru Nazife Güngör, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri, Azərbaycan Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin deputatı Fazil Mustafa, Mətbuat Şurasının sədri Rəşad Məcid və Azərbaycanın Əməkdar artisti Rafiq Həşimov çıxışlarında kitab və mütaliənin əhəmiyyətini, cəmiyyətin inkişafındakı rolunu diqqətə çatdırıblar.

Festivalda tanınmış yazıçı və şairlərin təqdimatları və avtoqraf sessiyaları, məşhur şəxsiyyətlərlə görüşlər, poeziya saatları, eləcə də uşaqlar üçün ucadan nağıl qiraətləri keçirilmişdir.



*Ülvi Babasoy (Xəzər Universiteti)*





Üsküdar University (Türkiye) Rector Nazife Güngör, Chairman of the Public Council under the Ministry of Culture and Director of Azerbaijan Ataturk Center Academician Nizami Jafarov, Member of Parliament Fazil Mustafa, Press Council Chairman Rashad Majid, and Honored Artist of Azerbaijan Rafig Hashimov emphasized in their speeches the importance of books and reading and their role in society's development.

The festival featured presentations and autograph sessions by well-known writers and poets, meetings with famous personalities, poetry hours, as well as storytelling sessions for children.





# XƏZƏR UNİVERSİTETİ İLƏ "TƏHSİL VƏ TƏLİM XİDMƏTLƏRİ" MMC ARASINDA ƏMƏKDAŞLIQ DAVAM EDİR

"Təhsil və Təlim Xidmətləri" (ETS) MMC dekabrın 22-də 1 yaşını qeyd etdi. ETS bir illik fəaliyyəti ərzində uğurlu layihələrə imza atmaqla yanaşı, 15-dən çox müxtəlif mövzuda uzunmüddətli və qısamüddətli təlimlər keçirmişdir, mentorluq proqramı ilə məşğul olmuşdur. Xəzər Universiteti cəmiyyətlə birgə infosessiya və müxtəlif seminarlar təşkil etmişlər.

# COOPERATION CONTINUES BETWEEN KHAZAR UNIVERSITY AND "EDUCATION AND TRAINING SERVICES" LLC

Education and Training Services (ETS) LLC celebrated its 1st anniversary on December 22. During its 1-year operation, ETS has not only implemented successful projects but also conducted more than 15 long-term and short-term trainings on various topics and engaged in mentoring programs. Khazar University and the company jointly organized info sessions and various seminars.



*Elvin Əhmədov, İradə Xəlilova, Fidan Aslanzadə, Günay Muradova*

ETS-in 1-ci il dönümünə həsr olunmuş ziyafətdə Xəzər universitetinin rektoru Dos. İradə Xəlilova və Neft mühəndisliyi departmentinin əməkdaşları Fidan Aslanzadə və Günay Muradova iştirak etmişlər.

Qonaqları cəmiyyətin direktoru Dr. Elvin Əhmədov və direktor müavini Sevindik Süleymanov açılış sözü ilə salamladıqdan sonra MMC-nin illik fəaliyyəti barədə filmlər nümayiş olunmuşdur. Bundan sonra qonaqların təbrik çıxışları dinlənilmiş və MMC tərəfindən dərc olunmuş təlim materialları və kitabların sərgisi nümayiş edilmişdir. Qonaqların marağına səbəb olan kitablar iştirakçılara hədiyyə olunmuşdur.

Associate Professor Irada Khalilova, Rector of Khazar University, and Petroleum Engineering Department staff members Fidan Aslanzade and Gunay Muradova attended the reception dedicated to ETS's 1st anniversary.

After Dr. Elvin Ahmadov, Director of the company, and Sevindik Suleymanov, Deputy Director, welcomed the guests with opening remarks, films about the LLC's annual activities were shown. Afterwards, congratulatory speeches from guests were heard, and an exhibition of training materials and books published by the LLC was displayed. Books that attracted guests' interest were presented as gifts to the participants.

## DOKTORANT VƏ DİSSERTANTLARIN ATTESTASİYASI





## ATTESTATION OF DOCTORAL STUDENTS AND DISSERTATORS

Dekabrın 23-24-də Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin yerli və xarici doktorant və dissertantlarının illik elmi fəaliyyətlərinin qiymətləndirilməsi məqsədilə attestasiya keçirildi.

Attestasiyada hər bir tələbə öz elmi fəaliyyəti haqqında qısa təqdimatla çıxış etdi. Təqdimatlarda tələbələr dissertasiya mövzuları üzrə apardıqları araşdırmalar, əldə etdikləri nəticələr, çap olunmuş məqalələr və konfrans materialları, eləcə də qarşıda duran plan və hədəflər barədə məlumat verdilər.

Komissiya üzvləri doktorant və dissertantların illik elmi fəaliyyətlərinə əsasən müvafiq qərarlar qəbul etdilər və növbəti mərhələlərdə daha səmərəli işləmək üçün tələbələrə faydalı tövsiyələr verdilər.






On December 23-24, an attestation was held to evaluate the annual scientific activities of local and international doctoral students and dissertators of Khazar University's Graduate School of Science, Arts and Technology.

During the attestation, each student gave a brief presentation about their scientific activities. In their presentations, students provided information about their research on dissertation topics, obtained results, published articles and conference materials, as well as upcoming plans and goals.

The commission members made relevant decisions based on the annual scientific activities of doctoral students and dissertators and provided useful recommendations for more effective work in the next stages.





Raziyə İsayeva

## "İQLİM DƏYİŞİKLİYİ VƏ DƏYİŞƏN İQTİSADİ SİYASƏTLƏR: PROBLEM VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA PANEL MÜZAKİRƏ

## A PANEL DISCUSSION WAS HELD ON THE TOPIC OF "CLIMATE CHANGE AND CHANGING ECONOMIC POLICIES: PROBLEMS AND PROSPECTS"

Dekabrın 23-də İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə "İqlim dəyişikliyi və dəyişən iqtisadi siyasətlər: problem və perspektivlər" mövzusunda panel müzakirə keçirilmişdir.

Tədbirin açılışında İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva iqlim dəyişikliyinin qlobal iqtisadiyyata təsirləri və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişdir



Polad Orucov

Panel çərçivəsində üç əsas məruzə təqdim olunmuşdur. İlk olaraq İqtisadiyyat və menecment departamentinin müəllimi Polad Orucov iqlim dəyi-



Nuran Əliyeva

On December 23, a panel discussion was held on the topic of "Climate Change and Changing Economic Policies: Problems and Prospects" organized by the Department of Economics and Management.

At the opening of the event, the Dean of the Faculty of Economics and Management, Dr. Razia Isaeva, presented a comprehensive overview of the impacts of climate change on the global economy and the measures taken in this direction.

Three main presentations were presented within the framework of the panel. First, Polad Orujov, a lecturer at the Department of Economics and Management, delivered a report on climate change and tourism policies. The report analyzed the impacts of climate

şikliyi və turizm siyasətləri mövzusunda məruzə ilə çıxış etmişdir. Məruzədə iqlim dəyişikliyinin müxtəlif ölkələrdə turizm sektoruna təsirləri və Azərbaycanın turizm inkişafı strategiyası çərçivəsində əsas prioritetlər elmi əsaslarla təhlil olunmuşdur.



*Həsən Rəhimli*

Növbəti məruzə fakültənin tələbəsi Nuran Əliyeva tərəfindən təqdim edilmişdir. Məruzəçi davamlı inkişaf və iqtisadi artım məsələlərinə dair tədqiqat nəticələrini iştirakçılarla paylaşmışdır. Burada davamlı inkişaf problemləri, Azərbaycanda yaşıl iqtisadiyyat, iqlim dəyişikliyi ilə mübarizənin effektiv həll yolları və bu istiqamətdə qabaqcıl dünya təcrübəsi ilə bağlı məsələlərə toxunulmuşdur. Son olaraq departamentin müəllimi Həsən Rəhimli "İqlim dəyişikliyi: reallıq yoxsa illüziya?" mövzusunda məruzə etmişdir. Çıxış zamanı iqlim dəyişikliyi ilə bağlı proqnozlar, iqlim dəyişikliyinin maliyyələşdirilməsindəki çətinliklər, karbon emisiyası və adambaşına düşən ÜDM arasındakı əlaqə, iqtisadi kiçilmənin zəruriliyi və bu istiqamətdə empirik araşdırmaların nəticələri ilə bağlı məsələlər şərh olunmuşdur.

Məruzələrdən sonra iştirakçılar mövzu ətrafında müxtəlif yanaşmalar irəli sürərək, geniş müzakirələr aparmışlar. Tədbir yüksək maraqla qarşılanaraq, iqlim dəyişikliyinə dair maarifləndirici və konstruktiv bir müzakirə platforması yaratmışdır.



change on the tourism sector in different countries and the main priorities within the framework of the tourism development strategy of Azerbaijan on a scientific basis.

The next presentation was delivered by Nuran Aliyeva, a student of the faculty. The speaker shared her research results on sustainable development and economic growth with the participants. Here, issues related to sustainable development problems, green economy in Azerbaijan, effective solutions to combat climate change, and advanced world experience in this direction were touched upon.

Finally, Hasan Rahimli, a lecturer of the department, gave a report on the topic "Climate change: reality or illusion?" During the speech, issues related to climate change forecasts, difficulties in financing climate change, the relationship between carbon emissions and per capita GDP, the necessity of economic contraction, and the results of empirical research in this direction were touched upon. After the reports, all participants held extensive discussions, putting forward different approaches to the topic. The event was met with great interest and created an educational and constructive discussion platform on climate change.




# “SON MƏNZİLİ İSTANBUL OLAN AZƏRBAYCANLILAR” KİTABININ TƏQDİMATI

# PRESENTATION OF THE BOOK "AZERBAIJANIS WHOSE FINAL DESTINATION IS ISTANBUL"

Dekabrın 24-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departlamentinin təşkilatçılığı ilə universitetdə azərbaycanlı jurnalist, yazıçı, araşdırmaçı, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülmuş Dilqəm Əhmədin “Son mənzili İstanbul olan azərbaycanlılar” kitabının təqdimatı keçirildi.

Tədbir Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının açılış nitqi ilə başladı.

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin moderatorluğu ilə davam edən tədbirdə Prof. Fikrət Rzayev (ADPU-nun Sosial və humanitar məsələlər üzrə prorektoru), Dr. Cihangir İşbilir, (Türkiyə Respublikasının Azərbaycandakı səfirinin media müşaviri), Prof. Ədalət Tahirzadə (Bakı Avrasiya Universitetinin müəllimi) və Dos. Mehdi Gəncəli (Mərmərə Universitetinin müəllimi, kitabın redaktoru) çıxış etdilər.



*Dilqəm Əhməd*





*Mehdi Gəncəli*

On December 24, the Department of Political Science and Philosophy at Khazar University organized a presentation of the book "Azerbaijanis Whose Final Destination is Istanbul" by Azerbaijani journalist, writer, researcher Dilgam Ahmad, who was awarded the jubilee medal "100th Anniversary of the Azerbaijan Democratic Republic (1918-2018)."

The event began with an opening speech by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees.

The event continued under the moderation of Assoc. Prof. Orkhan Valiyev, head of the Department of Political Science and Philosophy, with speeches by Prof. Fikrat Rzayev (Vice-Rector for Social and Humanitarian Affairs at ASPU), Dr. Cihangir Ishbilir (Media Advisor to the Turkish Ambassador to Azerbaijan), Prof. Adalat Tahirzade (lecturer at Baku Eurasian University), and Assoc. Prof. Mehdi Ganjali (lecturer at Marmara University and editor of the book).




*Fikrət Rzayev*

Müəllif Dilqəm Əhməd  çıxışında bu kitabın ərsəyə gəlməsindən, arxivlərdə aparılan axtarışlardan, son mənzili İstanbul olan azərbaycanlıların məzarlarının bərpasından danışdı, “Son mənzili İstanbul olan azərbaycanlılar” kitabından Xəzər Universitetinə hədiyyə etdi. Müəllifə ünvanlanan suallar yekunlaşdıqdan sonra tədbir Hamlet İsaxanlının da Dilqəm Əhmədə hədiyyə təqdim etməsi ilə başa çatdı.




*Orxan Vəliyev*

In his speech, author Dilgam Ahmad talked about the creation of this book, archival research, and the restoration of the graves of Azerbaijanis whose final destination is Istanbul. He presented a copy of his book as a gift to Khazar University.



*Ədalət Tahirzadə*

After the question-and-answer session with the author concluded, the event ended with Hamlet Isakhanli presenting a gift to Dilgam Ahmad.



*Cihangir İşbilir*



*Hamlet İsaxanlı*

## TƏLƏBƏLƏR GÖRKƏMLİ TARİXÇİ ALİM ZİYA BÜNYADOVUN MƏZARINI ZİYARƏT ETDİLƏR

Dekabrın 24-də Tarix və arxeologiya departamentinin müəllimi Dos. Roza Arazovanın təşkilatçılığı ilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi və Tarix və coğrafiya müəllimliyi ixtisaslarında təhsil alan III və IV kurs tələbələri Fəxri Xiyabanda görkəmli tarixçi alim Ziya Bünyadovun 101 illiyi ilə bağlı  məzarını ziyarət etdilər.

## STUDENTS VISITED THE GRAVE OF PROMINENT HISTORIAN ZIYA BUNYADOV

On December 24, third and fourth-year students majoring in History Teaching and History and Geography Teaching at the Faculty of Humanities, Education and Social Sciences, under the organization of Assoc. Prof. Roza Arazova from the Department of History and Archaeology, visited the grave of prominent historian Ziya Bunyadov in the Alley of Honor on the occasion of his 101st birth anniversary.



Ziyarət zamanı verilən məlumatlar Fəxri Xiyabana ziyarətə gəlmiş türk turistlərin də marağına səbəb oldu. Dos.Roza Arazova tursitlərə Ziya Bünyadovun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verdi. Ziyarət xatirə şəkillərinin çəkilməsi ilə başa çatdı.

The information provided during the visit also caught the interest of Turkish tourists who were visiting the Alley of Honor. Assoc. Prof. Roza Arazova gave the tourists detailed information about Ziya Bunyadov's life and work. The visit concluded with the taking of commemorative photographs.

# “ERKƏN NİKAHIN PSİXOLOJİ VƏ FİZİOLOJİ FƏSADLARI” MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "PSYCHOLOGICAL AND PHYSIOLOGICAL CONSEQUENCES OF EARLY MARRIAGE"

Dekabrın 24-də Xəzər Universitetinin Psixologiya departamenti və Psixologiya klubunun birgə təşkilatçılığı ilə “Erkən nikahın psixoloji və fizioloji fəsadları” mövzusunda seminar keçirildi. Psixologiya departamentinin koordinatoru Mələk Kərimova tədbiri açaraq, mövzunun aktuallığını və ölkəmiz üçün əhəmiyyətini qeyd etdi.

Psixologiya departamentinin əməkdaşı, Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov erkən nikahın fərdlərin psixoloji rifahına və fizioloji sağlamlığına təsirləri, bu problemlərin sosial nəticələri və həlli yolları haqqında iştirakçılara ətraflı məlumat verdi.

Mirsadiq Muxtarov erkən nikahın yaratdığı əsas problemləri təhlil edərək, gənclərin həyat keyfiyyətinə təsirlərini və gələcək nəsillər üzərindəki mənfi nəticələrini vurğuladı. Seminar interaktiv formatda keçirildi, iştirakçılar suallar verərək mövzu ilə bağlı geniş fikir mübadiləsi apardılar.



*Mirsadiq Muxtarov*



On December 24, a seminar on "Psychological and Physiological Consequences of Early Marriage" was jointly organized by Khazar University's Psychology Department and Psychology Club. Malak Karimova, coordinator of the Psychology Department, opened the event by highlighting the relevance and importance of the topic for our country.

Mirsadiq Mukhtarov, staff member of the Psychology Department and psychologist at the Khazar Psychological Service Center, provided detailed information to participants about the effects of early marriage on individuals' psychological well-being and physiological health, the social consequences of these problems, and potential solutions. Analyzing the main problems caused by early marriage, Mirsadiq Mukhtarov emphasized its impact on young people's quality of life and negative consequences for future generations. The seminar was conducted in an interactive format, with participants asking questions and engaging in extensive discussions about the topic.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN TƏŞKİL ETDİYİ ŞEİR QİRAƏT MÜSABİQƏSİ BAŞA ÇATDI





*Milana Abbasova*

# POETRY RECITATION COMPETITION ORGANIZED BY THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE CONCLUDES

Dekabrın 24-də Xəzər Universitetinin Mərmər salonunda İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə “Poetik səslər” (“Poetic Voices”) adlı dördüncü şeir qiraət müsabiqəsi keçirildi. Müsabiqədə 20-ə yaxın tələbə ingilis klassik ədəbiyyatından seçmə şeirlər ilə çıxış etdi.



*Səkinə Ağayeva*

İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasovanın açılış nitqi ilə başlayan tədbirdə departamentin müəllimi, amerikalı mütəxəssis Michael Collins Xəzər Universitetinə, tələbələrə həsr etdiyi şeirlərini oxudu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxışında müsabiqənin əhəmiyyətini qeyd etdi və iştirakçılara uğur arzuladı.

On December 24, the fourth poetry recitation competition titled "Poetic Voices" was held in the Marble Hall of Khazar University, organized by the Department of English Language



*Xədicə Əhmədzadə*

and Literature. Nearly 20 students performed selected poems from English classical literature.

The event began with an opening speech by Milana Abbasova, head of the English Language and Literature Department, followed by Michael Collins, an American specialist and department teacher, who read his poems dedicated to Khazar University and its students. Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of




*Münsiflər heyətinin üzvləri: Nailə Qasımova,Leyli Salayeva, Firəngiz Nəsirova və Michael Collins müsabiqənin qalibi Rəvan Şahmarlıya sertifikat və plaket təqdim edərkən*

Münsiflər heyəti baş müəllim Firəngiz Nəsirova, Nailə Qasımova (Xəzər Universiteti, İngilis dili və ədəbiyyatı departamenti), Michael Collins və Leyli Salayevadan ibarət (Azərbaycan Yazıçılar Birliyi və Britaniya Poeziya Cəmiyyətinin üzvü, şair,yazıçı ədəbi tərcüməçi) idi.



*Adilə Abbasova*

Münsiflər heyəti iştirakçıları əvvəlcədən müəyyən olunmuş meyarlar əsasında qiymətləndirdi. Humanitar, təhsil və sosial elmlər fakültəsinin ingilis dili müəllimliyi ixtisasında təhsil alan tələbələr müsabiqənin qalibləri oldular:

(*Ardı səh.32-də*)



*Nərmin Mülkümova*

Directors and Trustees, noted the importance of the competition in his speech and wished success to the participants.

The jury consisted of senior lecturer Firangiz Nasirova, Naila Gasimova (Khazar University, Department of English Language and Literature), Michael Collins, and Leyli Salayeva (member of Azerbaijan Writers Union and British Poetry Society, poet, writer, and literary translator).

The jury evaluated the participants based on predetermined criteria. Students from the School of Hu-

(*To be continued page 32*)

1-ci yer: Rəvan Şahmarlı - dördüncü kurs tələbəsi;

2-ci yer: Xədicə Əhmədzadə - üçüncü kurs tələbəsi; Nərmin Mülkümova - dördüncü kurs tələbəsi;



*Fidan Novruzova*

3-cü yer: Səkinə Ağayeva-üçüncü kurs tələbəsi; Fidan Novruzova-filologiya (ingilis dili və ədəbiyyatı) ixtisasının 3-cü kurs tələbəsi; Adilə Abbasova - 2-cü kurs tələbəsi.

Qaliblərə sertifikat və plaket təqdim edildi.



*Aysel Ağazadə*

manities, Education and Social Sciences majoring in English Language Teaching won the competition:

1st place: Ravan Shahmarly - fourth-year student;

2nd place: Khadija Ahmadzada - third-year student; Narmin Mulkumova - fourth-year student;

3rd place: Sakina Aghayeva - third-year student; Fidan Novruzova - third-year student of Philology (English Language and Literature); Adila Abbasova - second-year student.

Winners were presented with certificates and plaques.



## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİNİN TƏDQİQAT İŞİ BEYNƏLXALQ ELMİ KONFRANSDA YÜKSƏK QİYMƏTLƏNDİRİLİB

## KHAZAR UNIVERSITY STUDENT'S RESEARCH WORK HIGHLY APPRECIATED AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Xəzər Unuversitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin II kurs tələbəsi Leyli Abbaszadə Bakı Dövlət Universiteti tərəfindən 2024-cü il dekabrın 24-də təşkil olunan "Biotibbi və ətraf mühit çağırışları üçün qabaqcıl materiallar" mövzusunda beynəlxalq konfransda məruzə edib.

Kimya müəllimliyi ixtisası üzrə təhsil alan tələbənin araşdırması Azərbaycanın neftli qumlarının spektral tədqiqinə həsr olunmuşdur. Onun ilk dəfə olaraq əldə etdiyi tədqiqat nəticələri, indiyədək respublikada istifadə olunmayan neftli qumlardan yanacaq məhsullarının alınmasının perspektivliyinin yüksək olduğunu göstərmişdir. Leyli Abbaszadənin məruzəsi konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.




*Leyli Abbaszadə*




Leyli Abbaszade, a second-year student at Khazar University's School of Science and Engineering, presented at an international conference on "Advanced Materials for Biomedical and Environmental Challenges" organized by Baku State University on December 24, 2024.

The research of the student, who is studying Chemistry Education, was dedicated to the spectral investigation of Azerbaijan's oil sands. Her first-time research findings demonstrated high prospects for obtaining fuel products from oil sands that have not been utilized in the republic until now. Leyli Abbaszade's presentation was met with great interest and highly appreciated by conference participants.



Mirsadiq Muxtarov

Sitat.info

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞININ *SITAT.INFO*-YA MÜSAHİBƏSİ

## PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER'S INTERVIEW WITH *SITAT.INFO*

Son illərdə sosial media və reklamların təsiri ilə cəmiyyətə ötürülən gözəllik standartları insanların psixoloji vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu barədə digər ekspertlərlə yanaşı, Xəzər Universiteti Psixologiya departamentinin əməkdaşı, Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov da 2024-cü il dekabrın 23-də *Sitat.info* xəbər portalına müsahibə vermişdir. Onun sözlərinə görə, cəmiyyətin gözəllik standartlarının sərt çərçivələri insanlarda komplekslər yaradır və özünəinamı zəiflədir. Bəzi insanlar bu inamsızlığı aradan qaldırmaq üçün estetik əməliyyatlara müraciət edirlər. "İnsanların görünüşlərinin gözlədikləri kimi olmaması, onların özünə inamını azalda bilir. Estetik əməliyyatlar bəzən bu inamsızlıqları aradan qaldırmaq üçün bir yol kimi görülür," - deyə psixoloq bildirib.

Mirsadiq Muxtarov həmçinin qeyd edib ki, estetik əməliyyatların arxasında emosional və psixoloji səbəblər də dayanır. Psixoloqun açıqlamaları göstərir ki, estetik əməliyyatlara artan tələbat təkcə xarici görünüşlə bağlı deyil, həm də insanların daxili dünyalarına, emosional və psixoloji ehtiyaclarına cavab verir.

In recent years, beauty standards conveyed to society through social media and advertising have significantly impacted people's psychological well-being. Along with other experts, Mirsadig Mukhtarov, staff member of Khazar University's Psychology Department and psychologist at Khazar Psychological Service Center, gave an interview to *Sitat.info* news portal on December 23, 2024, about this issue. According to him, society's rigid beauty standards create complexes in people and weaken their self-confidence. Some people turn to aesthetic surgeries to overcome this lack of confidence. "When people's appearances don't match their expectations, it can reduce their self-confidence. Aesthetic surgeries are sometimes seen as a way to overcome these insecurities," the psychologist stated.

Mirsadig Mukhtarov also noted that emotional and psychological reasons underlie aesthetic surgeries. The psychologist's statements indicate that the increasing demand for aesthetic surgeries is not only about external appearance but also responds to people's inner worlds, emotional and psychological needs.

*https://sitat.info/news/50859/estetik-emeliyyatlara-artan-telebin-psixoloji-sebebleri*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*CAUCASUS STRATEGIC PERSPECTIVES*" JURNALINDA

## ARTICLE BY POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT PROFESSOR PUBLISHED IN "*CAUCASUS STRATEGIC PERSPECTIVES*" JOURNAL

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin və Hankuk Xarici Tədqiqatlar Universitetinin (Cənubi Koreya) müəllimi Prof. Rövşən İbrahimovun "Azerbaijan as an Emerging Middle Power after the 44-Day War and Reshaping the Foreign Policy" ("Azərbaycan 44 günlük müharibədən sonra yaranan orta güc kimi və xarici siyasətin yenidən formalaşdırılması") mövzusunda məqaləsi "*Caucasus Strategic Perspectives*" jurnalında dərc edilmişdir (Cild 5, № 2, 2024).

Qeyd edək ki, "*Caucasus Strategic Perspectives*" xarici və təhlükəsizlik siyasəti üzrə akademik jurnaldır və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən 2020-ci ildən ildə iki dəfə nəşr olunur.

An article titled "Azerbaijan as an Emerging Middle Power after the 44-Day War and Reshaping the Foreign Policy" by Prof. Rovshan Ibrahimov, faculty member of Khazar University's Department of Political Science and Philosophy and Hankuk University of Foreign Studies (South Korea), has been published in "*Caucasus Strategic Perspectives*" journal (Volume 5, No. 2, 2024).

It should be noted that "*Caucasus Strategic Perspectives*" is an academic journal on foreign and security policy and has been published biannually by the Center of Analysis of International Relations since 2020.

*https://cspjournal.az/*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*CAUCASUS STRATEGIC PERSPECTIVES*" JURNALINDA

## DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY LECTURER'S ARTICLE PUBLISHED IN "*CAUCASUS STRATEGIC PERSPECTIVES*"

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovu həmmüəllifi olduğu "Extra-Regional Actors in the South Caucasus: Armenia–India Alignment in the Spotlight" ("Cənubi Qafqazda regiondankənar oyunçular: Ermənistan-Hindistan alyansı diqqət mərkəzindədir") adlı məqalə "*Caucasus Strategic Perspectives*"də dərc edilmişdir (Cild 5, № 2, 2024).

Qeyd edək ki, "*Caucasus Strategic Perspectives*" xarici və təhlükəsizlik siyasəti üzrə akademik jurnaldır və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən 2020-ci ildən ildə iki dəfə nəşr olunur.

An article titled "Extra-Regional Actors in the South Caucasus: Armenia–India Alignment in the Spotlight" by Dr. Vasif Huseynov, lecturer of Khazar University's Department of Political Science and Philosophy has been published in "*Caucasus Strategic Perspectives*" journal (Volume 5, Issue 2, 2024).

It should be noted that "*Caucasus Strategic Perspectives*" is an academic journal on foreign and security policy and is published on a biannually basis as of 2020 by the Center of Analysis of International Relations.

*https://cspjournal.az/post/extra-regional-actors-in-the-south-caucasus-armeniaindia-alignment-in-the-spotlight-535*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# ARİF SƏFİYEVİN "DRAMATURGİYAMIZ KOMİZM İŞIĞINDA" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda uzun illər fəaliyyət göstərmiş, filologiya elmləri doktoru, professor Arif Səfiyevin (1934-2024) "Dramaturgiyamız komizm işığında" adlı kitabı çapdan çıxıb. Alimin 90 illik yubileyi münasibətilə hazırlanan kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının 24 iyun 2024-cü il tarixli 4 saylı qərarı ilə nəşr edilib.

Kitabı filologiya üzrə fəlsəfə doktoru, dosent Safurə Quliyeva tərtib edərək, çapa hazırlayıb. Elmi redaktoru filologiya elmləri doktoru, professor Şirindil Alışanlı olmuş kitabın rəyçiləri filologiya üzrə fəlsəfə doktorları, dosentlər Hicran Nəsibova və Tahir Məsimovdur.

528 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında çap olunub. Alimin 70 illiyi münasibətilə filologiya elmləri doktoru Şamil Salmanovun yazdığı "Janra sədaqət" və 75 illiyində filologiya elmləri doktoru Zaman Əsgərlinin yazdığı "Komik gülüşün sərrafı" məqalələri ön söz əvəzinə verilib. Həmçinin tərtibçi Safurə Quliyevanın "İşıqlı alim, əməlisaleh insan" məqaləsi də kitaba daxil edilib.

Kitabda ədəbiyyatşünas alim Arif Səfiyevin müxtəlif qəzet və jurnallarda 1964-2007-ci illərdə çap olunmuş məqalələri və Ədəbiyyat İnstitutu tərəfindən 1976-1984-cü illərdə hazırlanmış "Ədəbi proses" kitablarında müəllifi olduğu "Dramaturgiya" oçerkləri daxil edilib. Toplunun sonunda Arif Səfiyevin arxivindəki gənclik illərində yazıb heç yerdə çap etdirmədiyi lirik şeirləri və bir sıra şəkilləri də təqdim olunub.

# ƏDƏBİYYAT İNSTİTUTUNDA 2025-Cİ İLİN İLK ELMİ ŞURASI KEÇİRİLİB



*Nəzakət Qafqazlı, İsa Həbibbəyli*

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının 2025-ci il üçün ilk iclası keçirilib. İclas AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəylilinin sədrliyi ilə baş tutub. O, əvvəlcə gündəlikdəki məsələləri diqqətə çatdırıb, iclasda 2025-ci ildə Ədəbiyyat İnstitutunun qarşısında duran əsas vəzifələrin müzakirə olunacağını bildirib.

Sonra akademik İsa Həbibbəyli filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət Qafqazlını (Quliyeva) 80 illik yubileyi münasibətilə təbrik edərək onun elmi fəaliyyətinə nəzər salıb, yubilyarın yüksək insani keyfiyyətlərindən danışıb. Dosent Nəzakət Qafqazlı 80 illik yubileyi və məhsuldar elmi fəaliyyətinə görə İnstitutun Fəxri Fərmanı ilə təltif edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə cari ilin ölkəmizdə "Konstitusiya və suverenlik İli" elan edildiyini xatırladan AMEA rəhbəri sözügedən Sərəncamla bağlı qarşıda duran vəzifələrdən danışıb. Qeyd edib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyət kəsb edən bir hadisədir. Bu qərar ölkənin konstitusiyasının və suverenliyinin qorunması, gücləndirilməsi və əhəmiyyətinin bir daha vurğulanması məqsədini daşıyır.

"Konstitusiya və suverenlik İli" ilə bağlı Akademiya miqyasında geniş işlərin aparılacağını, müxtəlif tədbirlərin keçiriləcəyini, yeni kitabların yazılacağını, məqalələrin dərc olunacağını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli, həmçinin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda son illər aparılan elmi tədqiqatlar əsasında çap olunmuş kitablar barəsində məlumat verərərək, yeni nəşrləri yüksək qiymətləndirib. O, bu kitabların gələcək tədqiqatçılar üçün etibarlı mənbə rolunu oynayacağına əminliyini bildirib.

Elmi katib, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2025-ci il üçün elmi tədqiqat işlərinin əhatəli planının təsdiq edilməsi haqqında", "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 2025-ci il üçün İş planının müzakirəsi və təsdiqinə dair", "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2025-ci il üçün "Tədbirlər planı"nın müzakirəsi və təsdiqi haqqında" məlumat verib.

Elmi Şurada "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalının Redaksiya Heyətinin yeni tərkibinin təsdiq edilməsi və gündəlikdəki məsələlər haqqında qərarlar qəbul edilib.

Daha sonra institutun Təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru dosent Günay Qarayeva "Elmlər və fəlsəfə doktoru hazırlığı üzrə doktorant və dissertantların attestasiyadan keçməsinə dair" çıxış edib.

Sonda bir sıra cari məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

## XƏZƏR UNİVERSİTETİNİN KİTABXANASINDA “*SƏNƏTİN KULİSİ*” VERİLİŞİ

## "*BEHIND THE ART*" SHOW AT KHAZAR UNIVERSITY LIBRARY

2025-ci il yanvarın 14-də Xəzər Universitetinin Neftçilər kampusunun kitabxanasında “*Sənətin kulisi*” verilişi çəkilmişdir. Veriliş Kulis.az saytının rəsmi yutub kanalında yayımlanır. Layihənin müəllifi və aparıcısı Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoydur. Veilişin ilk mövzusu “Miflərin müasir həyata təsirləri”dir. Qonaq professor Asif Hacılıdır. Verilişin linki aşağıda verilmişdir:

The "*Behind the Art*" show was filmed at the library of Khazar University's Neftchilar campus on January 14, 2025. The show is broadcast on the official YouTube channel of Kulis.az. The project's author and host is Ulvi Babasoy, a lecturer at the Department of Languages and Literature. The first topic of the show is "Modern Life Influences of Myths." The guest is Professor Asif Hajili. The link to the show is provided below:

*https://www.youtube.com/watch?v=LOizCZux0w8&t=19s*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ “*BEYNƏLXALQ RADİO*”-DA

## DEPARTMENT HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON “*INTERNATIONAL RADIO*”

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2025-ci il yanvarın 14-də “*Beynəlxalq Radio*”-da “Azərbaycanın Səsi” verilişinə “Azərbaycan-Türkiyə diplomatic münasibətlərinin 33-cü ili” mövzusunda müsahibə vermişdir.

Dos. Orxan Vəliyev türklərin, oğuzların qədimdə qərbə hərəkət edərkən Azərbaycanda məskən tutması, müasir dövrdəki Azərbaycan-Türkiyə münasibətləri, inkişaf edən münasibətlərin hər iki ölkə üçün əhəmiyyəti və digər məsələlərə toxunmuşdur.

On January 14, 2025, the head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, gave an interview to “Voice of Azerbaijan” on “*International Radio*” on the topic of “33rd years of Azerbaijan-Türkiye diplomatic ties”.

Assoc. Prof. Orkhan Valiyev touched upon the settlement of the Turks and Oghuz people in Azerbaijan as they moved westward in ancient times, as well as contemporary Azerbaijan-Türkiye relations, the importance of these developing relations for both countries, and other related issues.

*Link: https://www.youtube.com/watch?v=sbMKC1jVPwc*

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ *İCTİMAİ RADİO*-DA

## DEPARTMENT OF LANGUAGES AND LITERATURE PROFESSOR APPEARS ON *PUBLIC RADIO*

2025-ci il yanvarın 16-da Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Rüstəm Lazımov *İctimai Radio*-da Pərvanə Nadirqızının təqdim elədiyi “Can, Azərbaycan” verilişində qonaq olmuşdur. Veriliş “Mövlanə Cəlaləddin Ruminin irsi” mövzusuna həsr edilmişdir. Verilişi aşağıdakı link vasitəsilə dinləyə bilərsiniz.

On January 16, 2025, Dr. Rustam Lazimov from the Department of Languages and Literature was a guest on the "Can, Azərbaycan" show hosted by Parvana Nadirqizi on *Public Radio*. The broadcast was dedicated to the theme "The Legacy of Mevlana Jalal ad-Din Rumi". Link to the show:

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ DOS. TELMAN NÜSRƏTOĞLU *AZTV* PROQRAMINDA DAİMİ ANALİTİK KİMİ FƏALİYYƏTƏ BAŞLAMIŞDIR

## ASSOCIATE PROFESSOR DR. TELMAN NUSRATOGLU, HEAD OF HISTORY AND ARCHAEOLOGY DEPARTMENT, BEGINS POSITION AS REGULAR ANALYST ON *AZTV* PROGRAM

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlu dövlət televizyası *AZTV* ilə əməkdaşlıq çərçivəsində "Hədəf" verilişinin tarix və strateji mövzulu xüsusi buraxılışlarının daimi analitiki kimi fəaliyyətə başlamışdır. Həftənin cümə günləri efirə gedən proqramların ilki 2025-ci il yanvarın 24-də yayımlanmışdır.

Tarixi, mədəni, geosiyasi istiqamətləri ilə Zəngəzur məsələsinin geniş şəkildə təhlil edildiyi proqramda ilk dəfə Zəngəzurla bağlı Osmanlı, Rusiya və Azərbaycan arxivlərində yer alan önəmli arxiv sənədləri və statistik qrafiklərdən istifadə edilmişdir.

Associate Professor Dr. Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, has begun his position as a regular analyst for special history and strategy-focused episodes of the "Hedef" program in collaboration with state television *AZTV*. The first of these weekly Friday programs aired on January 24, 2025.

The program featured a comprehensive analysis of the Zangazur issue, including its historical, cultural, and geopolitical aspects, utilizing important archival documents and statistical graphs from Ottoman, Russian, and Azerbaijani archives for the first time.

*Verilişin linki: https://youtu.be/XTAnRFHYPps*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ DOS. ORXAN VƏLİYEVİN "DAHA SƏRBƏST" LAYİHƏSİ

## "MORE LIBERAL" PROJECT ASSOCIATE PROFESSOR ORKHAN VALIYEV, HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, Dos. Orxan Vəliyev Daha TV-nin təşkilatçılığı, Asan İnovasiyalar Mərkəzi və ASAN TV-nin dəstəyi ilə 2025-ci il fevralın 5-dən etibarən hər ay bir akademik mövzunun müzakirə olunacağı "Daha sərbəst" layihəsinə başlamışdır. Layihə çərçivəsində dövlət, suverenlik, dil, Türk Dünyası, millətçilik, kapitalizm, insan və cəmiyyət və s. mövzular akademik dərinliklə, ancaq anlaşıqlı bir üslubla müzakirə ediləcəkdir.

Layihə Daha TV-nin rəhbərlərindən şair, yazıçı Aqşin Yeniseyin moderatorluğu ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin müşaviri Nicat Məmmədli və Dos. Orxan Vəliyevin çıxışları ilə baş tutacaqdır. 2025-ci ilin Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan edildiyi nəzərə alınaraq, ilk veriliş suverenlik mövzusuna həsr ediləcək. Proqramda suverenlik anlayışı nəzəri, fəlsəfi və tarixi aspektdən müzakirə olunacaq.

Dr. Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy and Associate Professor of Political Sciences, has commenced participation in the "More Liberal" project, organized by Daha TV with support from the ASAN Innovation Center and ASAN TV. Starting February 5, 2025, the project will feature monthly discussions on academic topics. The project will explore various subjects within social sciences with academic rigor yet accessible presentation, including state governance, sovereignty, language, Turkic World, nationalism, capitalism, human and society, and etc.

The program will be moderated by Agshin Yenisey, poet, writer, and one of Daha TV's executives, featuring discussions between Dr. Orkhan Valiyev and Nijat Mammadli, Advisor to the Minister of Science and Education of the Republic of Azerbaijan. Considering President Ilham Aliyev's decree declaring 2025 as the "Year of Constitution and Sovereignty" in Azerbaijan, the inaugural episode will be dedicated to the concept of sovereignty. The program will examine sovereignty from theoretical, philosophical, and historical perspectives.



## Hamlet İsaxanlı

### Baş həkimİ
(*Hekayə*)

### GÖRÜŞLƏRİMİZ DAVAM EDİR...
(*Lirik esse*)

### ZAHMAN
(*Bəhri-təvil*)

### SƏN MƏNİ NİYƏ SEVDİN?
(*Zarafat*)

## REDAKSİYAYA

Oxuculara dörd kiçik həcmli yazı təqdim edirəm :"Baş HəkimӀ" adlı hekayə, "Görüşlərimiz davam edir..." adlı lirik esse, "Zahman" adlı bəhri-təvil və "Sən məni niyə sevdin?" adlı zarafatcıl şeir. Mən, adətən, bir şey yazandan sonra "əsas iş görüldü" düşüncəsiylə yazını bir kənara buraxıb, gündəlik işlərimlə məşğul oluram, başım qarışır və bir sıra hallarda o yazını tamam unuduram. Bəlkə bunun bir səbəbi "sənət sənət üçündür", ya "sənət xalq üçündür" dilemması qarşısında dərindən düşünmədən birincini tərcih etməyimdir və beləliklə yazını oxuculara hazırlamağa – bu məsuliyyətli işə həvəsim olmur. Digər bir zəif cəhətim əksər yazılarımda dəqiq bitmə tarixinin qoyulmaması, yəni məlum olmamasıdır. Bu halda onu deyə bilərəm ki, hekayə hardasa iki (20 və 21-ci) əsrin qovuşduğu dövrün, esse isə son illərin məhsuludur. Zarafat-şeir isə bəlkə 15-16 il əvvəl yazılıb.

Bu dördlüyə daxil olan "Zahman" adlı yazının isə dəqiq tarixi var: 6 noyabr 2022-ci il! Bu yazı barədə bir neçə söz demək istəyirəm. Zahman mənim orta məktəb yoldaşım və dostumun adıdır. Mən Gürcüstanda Qardabani rayonunun Kosalı kənd orta məktəbində, Zahman isə həmin rayon mərkəzində yerləşən orta məktəbdə oxuyurdu. Məktəbdə iki müəllim Zahmanı dəcəllik etdiyinə görə sinifdəki qızların qarşısında döymüş, buna dözməyən Zahman evə qaçıb tüfəng götürmüş və məktəbə, müəllimlər otağına atəş açmışdı. Buna görə Zahmanı məktəbdən xaric etdilər və atası Əli kişi onu bizim məktəbə göndərdi. Beləliklə, orta məktəbin son 11-ci sinfini bərabər oxuduq. O zaman başlanan dostluğumuz davam etdi, Zahmanın həyat yoldaşı Yetər xanım və bizim Nailə xanım da dostlaşdılar. Yetər xanımın vəfat etməsi Zahmanı təbii olaraq sarsıtdı. Zahmanın dünyası korlandı, ürəyi ağrımağa başladı.

Bu yaxınlarda dəhşətli bir xəbər yayıldı, faciə baş verdi – Zahman bu vəfasız dünyanı tərk etdi, bizi, bütün yaxınlarını qəm-qüssə işində qoyub getdi. Yas yerində Zahmanın bir tələbə yoldaşı mənə "Hamlet müəllim, siz Zahmanın yubileyində ona həsr etdiyiniz bir yazı oxudunuz və əlinizlə yazdığınız o yazını elə orda Zahmana verdiniz"– dedi. Yadıma düşdü. Zahmanın yubiley məclisinə gedəndə birdən ağlıma gəldi ki, bəlkə Zahmanın həyatında baş verənlərə işarə edən bir şey yazım. Bəlkə bir bəhri-təvil? Bəhri-təvil qafiyəli nəsrdir, bütün əsər bir cümlədən ibarətdir, bir nöqtə var – o da sonda; doğru dayanacaqlarla birnəfəsə şeir kimi oxunmalıdır. Sabirin "Ey fələk, zülmün əyandır" və "Ey əzizim, xələfim" ifadələri ilə başlayan bəhri-təvilləri məşhurdur.

Dostum Zahmanın qızı Nazpəri xanım əlimlə yazdığım "Zahman" bəhri-təvilinin surətini mənə göndərdi, orada yazıldığı və həmin gündə oxunduğu tarixi qeyd etmişəmmiş. Nazpəri xanıma təşəkkür edirəm. Dostumun ruhu şad olsun.

# Baş həkimİ

(*Hekayə*)

Teymurun ad günü yaxınlaşırdı. Elə-belə ad günü yox, zarafat deyil, düz qırx yaşı tamam olur. "Qırx yaşında hər kamala çatarsan" deyiblər. Hikmət sahibi insanların dilindən çıxan və el aşıqlarının vəsf etdikləri fikirlər çox zaman düz olur, uzun illərin, əsrlərin zəngin təcrübəsi çox şey deyir. Amma, bu qəribə və mürəkkəb dünyada get-gedə artan tənqidi düşüncə hər şeyi təftiş edir, hər şeyə şübhə ilə yanaşır, hər şeydə bir əmma tapır, nəyisə bəh-bəhlə qəbul etməyə imkan vermir. Elə Teymur özü də bu cür düşüncə sahibidir.

Qırx ən məşhur rəqəmlərdən biridir – əlbəttə, riyazi baxımdan deyil, adət-ənənə, xalq ədəbiyyatı və mifologiyada tutduğu fəxri yerə görə. Tarix boyu müxtəlif xalqlarda qırx iri və hörmətli say hesab edilmiş, onun cürbəcür təzahürləri bu gün də qalmaqdadır. Qırx yaş insanın yetkinlik zirvəsi sayılır. Belə deyirlər ki, qırx yaşa qədər insan mühüm işlər görməli, onun yüksək mərtəbəyə çatdığı görünməlidir. Ata-babalar "Qırxında öyrənən gorunda çalar" demiş, "Qırxında yorğalamaq", yəni cavanlıq fikrinə düşmək qınanmışdır. "Qırx yaşında haramdan əl çək" – mühüm öyüddür. İslam ənənəsinə görə Məhəmməd peyğəmbərə ilk vəhy onun qırx yaşında gəlmişdi. Folklorda "qırx igid", "qırx quldur", "qırx qız", "qırx otaq", "qırx bulaq" kimi ifadələr və günümüzdəki "qırx gün" adəti yaxşı məlumdur. "Adamın qırx damarı var, canı bərkdir, ölməz" deyimi məlumdur. "Qırxayaq" adlı quruda yaşayan, sürünən onurğasız qurdun və ya cücünün əslində neçə ayağı var? Doğrudan da qırxmı? Minlərlə növü olan bu cücülərin çox fərqli sayda ayaqları olur, qırxdan az da, məsələn, 10-12, lap çox da, hətta mindən çox ayağı olanlar mövcuddur. Qırxayaq el sözüdür, elmdə buğumayaqlılar və ya çoxayaqlılar, Avropa dillərində isə miriapodlar (ingiliscə: myriapods) deyilir. Bir sözlə, qırx müqəddəs olmasa da, qiymətli saydır.

Teymur kimi hörmətli insanın, istedadlı alimin, yaxşı dostun 40 yaşının xüsusi bir yubiley kimi qeyd edilməməsi mümkün olan iş deyildi. Düşmən razı olsa da, dostlar qəti razı olmazdılar…

* * *

Teymuru həyatda uğur qazanmış insan saymaq olar. Təhsilin bütün pillələrində, keçdiyi bütün fənləri yaxşı mənimsəmiş, orta məktəbdə müəllimlərin sevimlisi olmuş, ali məktəbdə fizika ixtisasını seçərək yaxşı oxumuş, sonra ara vermədən elmi araşdırmalara baş vurmuş, xarici universitetlərdə oxumuş, çalışmış, iki dəfə uğurla dissertasiya müdafiə etmiş, nəhayət professor olmuşdur. Sevib-sevilmiş, ailə qurmuş, bir oğul və bir qız atasıdır. Teymur xasiyyətcə yumşaq və təvazökardır. Dostları az deyil – orta və ali məktəb yoldaşları, iş yoldaşları, bəzi yaxın qonşuları və uzaqdakı həmkarları.

Teymur və ailə üzvləri ad günlərini, adətən, ailədə qeyd edir, yeyib içir, musiqiyə qulaq asır, şənlənirlər. Bu dəfə vəziyyət dəyişdi, ali məktəb yoldaşları və bir neçə yaxın qohum Teymurun qırx yaşının tamam olacağını bildikləri üçün "yığışıb bunu xüsusi qeyd etmək lazımdır" – deyə hay-küy saldılar. Adətən, dostlar birlikdə şənlənmək üçün bəhanə axtarırlar, bu halda isə uzağa getmək lazım deyil, səbəb göz qabağındadır – hörmətli dostun şərəfinə məclis düzəldilməlidir; bu hamının ürəyindən idi. Teymurun həyat yoldaşı Reyhan xanım Teymurun "lazım deyil" sözünə fikir vermədən hazırlıq işinə girişdi, uşaqlar da sevinə-sevinə ona qoşuldular. Teymur, könülsüz olsa da, "yaxşı" deməli oldu. Hər şeydən əvvəl məclisdə iştirak edəcək qonaqların siyahısı tutuldu, allah eləməsin yaxınlardan kimlərsə yaddan çıxsın, sonra "bizi saymadınız" – deyə küsüb inciyəcəklər. Reyhan xanım, hər zaman olduğu kimi, hər şeyi öhdəsinə götürdü, Teymura ancaq alkollu və ya alkohollu içkiləri müəyyən etmək və almaq qaldı.

* * *

Qonaqlar gəlməyə başladılar – tək-tək, ikibir, üçbir. Bəzi kişilər həyat yoldaşı ilə, digərləri tək gəldilər. Tək gələn hər kəs Reyhan xanıma niyə tək gəldiyi barədə bir izahat verməyi özünə borc bildi, göstərilən səbəblərin bir qismi, mümkündür ki, uydurma idi – "arvad nəsə özünü yaxşı hiss etmədi" və ya "uşaqları qoyub gələ bilmədi" və ya "atası evindən gəldilər, ona görə əlacı kəsildi, evdə qalmalı oldu, amma yaman gəlmək istəyirdi"… Beləliklə, bu dost məclislərinə xas olan bir cəhət bu gün də özünü göstərdi – bu dəfə də qadınlar sayca kişilərdən az oldular.

Masanın üstü salatlar, içkilər və yeməklərlə dolmuşdu. Qonaqlar "qonaq otağı" adlanan otaqda

oturmuşdular, kefləri kök idi, niyə də olmasın?! Dostun ad günü, dostların bir yerdə lövbər salmaları, yemək-içmək, doyunca danışmaq, deyib-gülüb zarafat etmək, musiqiyə qulaq asmaq, mahnı oxumaq, rəqs etmək – belə gözəl əylənmək, gündəlik qayğıları unutmaq imkanı – az da olsa, hər gün ələ düşmür…

Bir neçə yerdən "nuş olsun" sözləri səsləndi, salatlar işə düşdü. Reyhan xanım Teymura doğru him-cim edir, nəyisə ona başa salmağa çalışırdı. Teymur təbəssüm dolu məhəbbətlə ona baxıb çiyinlərini çəkdi, yəni, başa düşmürəm. Reyhan xanım astaca "eh" deyib Teymura yaxınlaşdı və onun qulağına pıçıldadı: "Qonaqlara xoş gəldin de, ay Teymuuuur". Teymur "hə" deyib ayıldığını göstərdi, dodaqlarını büzüb və qaşlarını qaldırıb gözləri ilə xanımına sanki "ay Reyhan, beləyəm, neyləyim" dedi və sözə başladı:

– Əziz dostlar, xoş gəlmisiniz bizə, bizim komamıza! Çox sevindiyimizi, şübhəsiz, bilirsiniz və görürsünüz. Niyə də sevinməyək, bir-birini çoxdan tanıyan, yaxşı tanıyan dostların, yoldaşların görüşü həmişə maraqlı olur, ürəklər ləzzətlə döyünür, gözlər açılır, işıq saçır. Əlbəttə, bu cür görüşlər üçün müəyyən səbəblər və ya bəhanələr olur, onlar vacib deyil. Bu görüş mənim qırx yaşımın tamam olması münasibətinə bağlı olsa da, dediyim kimi, vacib olan, xoş olan bizim bir yerə gəlməyimizdir. Qırx yaşın otuz doqquzdan və ya qırx birdən və digər yaxın yaşlardan böyük fərqi yoxdur. Hamınız riyaziyyat oxumusunuz, əksəriyyətiniz riyaziyyatla bağlısınız. Riyazi baxımdan da qırx rəqəminin elə bir gözəlliyi, fövqəladəliyi yoxdur, sadəcə dilə-dişə düşmüş saydır. Guya bu yaşda adam müdrikləşməyə başlayır, kamillik dərəcəsinə çatır. Məncə, qəti belə deyil. Mənə elə gəlir ki, otuz yaşımda mən daha ağıllı idim, indiki ağlıma şübhəm var, 50 yaşa çatsam, onda nə olacaq, bilmirəm… İstənilən halda, sizin hər birinizin qırxdan xeyli böyük yaşlara, iki qırxa, üç qırxa çatmağınızı arzu edirəm, özü də, sappasağlam şəkildə, əziyyət çəkmədən, kef çəkə-çəkə. Özünüz çox kökəlməyin, kefiniz kök olsun! Xoş gəlmisiniz! Hə, təbii ki, məclisə bir başçı, lider, tamada seçmək lazım gələcək. Son zamanlar demokratiyadan dəm vurmaq dəbə düşüb. Görək, tamadanı necə seçəcəksiniz? Buyurun!

Kənd açıqlığını, sərhədsizliyi özündə hifz edən Azad həmən dilləndi:

– Elxan burda ola-ola kimin həddidir tamadalığa göz dikə və cürət edə. İçək Elxanın sağlığına!

Elxan özü də kəndsayağı adam idi, amma daha yumşaq və yəqin ki, daha həssas. O, mızıldandı:

– Yaşca bizim hər birimizdən böyük – hamılıqla hörmət etdiyimiz Musa müəllim burdadır, özü də çox gənc ikən Teymura universitetdə dərs deyib. Gəlin, Musa müəllimə qulaq asaq…

Tanışlar arasında hamıdan daha natural kənd adamı xasiyyəti ilə tanınan Musa müəllim etiraz etdi:

– Elxanın danışıq qabiliyyəti məndə yoxdu, üstəlik, o, məclis üzvlərini hamıdan yaxşı tanıyır. İçək tamadanın – Elxanın sağlığına!

Hər tərəfdən "sağ ol, Elxan" səsləri eşidildi, dolu qədəhlər üz-üzə gəlib - cingildəşib boşaldılar. Teymur "görürsünüz bizdə seçkilər necə gözəl keçir, davasız-şavasız və layiqli adam seçilir"– deyə badəni dodağına toxundurdu, bir neçə damcı udub, yerə qoydu. Elxan işə başladı, dostu Teymurun hamıya məlum olan keyfiyyətləri barədə özünəməxsus şirin dillə danışdı, əlində badə Teymura yaxınlaşdı, iki dost qucaqlaşdılar.

Məclis qaydalara uyğun olaraq davam etdi; hamı bir-bir yada salınır, möhkəm təriflənir və onun sağlığına badə qaldırılırdı. Kişiləri təklikdə təqdim edir, yanında xanımı olanlara isə xanımı da əlavə edir, uşaqları da yada salırdılar. Ağsaqqallardan, valideynlərdən başlayıb, Teymurun universitet yoldaşlarına, oradan da qohum və qonşulara keçdilər.

* * *

Elxan, doğrudan da, məclisi yaxşı idarə edir, yaxşı sözlər deyir, keçmişdə baş vermis hadisələri hamını heyran edən dəqiqliklə yada salır, onlara bəzək-düzək vurmağı da unutmur və bu üsulla yeni sağlıqlara yol açırdı. O, Teymura tərəf döndü:

– Teymur, əzizim, bu məclisdə əyləşən hər kəs sənin hörmət etdiyin və səni sevən seçmə adamlardır. Yaxşı tanış olduğun və sənə rəğbət bəsləyən adamların hamısını və ya əksəriyyətini dəvət etsən, gərək bir stadion kirayə edəydin. Amma bu vüsətcə kiçik, mehribanlıqla, məhəbbətlə dolu məclisimizdə mənim tanımadığım bir yoldaş iştirak edir. Mən bu gözəl geyimli, üz-gözündən cəsarət yağan oğlanı deyirəm və bu yerdə sözü sənin ixtiyarına buraxıram.

Hamı nəzərlərini Elxanın dediyi adama yönəltdi. Adam göy rəngli yaraşıqlı, bahalı pencəkdə idi, dümağ şıq duran köynək geymiş, üstündə çəpəki qızılı dəmiri olan qırmızı qalstuk bağlamışdı. O, təkəbbürlə başını qaldırdı - “buyurun, baxın, görün, qiymətləndirin” deyirmiş kimi. Teymur qonağı məclisə təqdim etdi:

– Cabbar çox bacarıqlı gəncdir, iş adamıdır, xaricdən ehtiyac duyulan malları ölkəmizə gətirir, təhsil və sənət etibarilə həkimdir, yaxşı həkimdir. Düzü, həkimlik sahəsini, hansı ixtisas sahibi olduğunu unutmuşam. Hər halda, hər iki fəaliyyət sahəsində tanınıb, öz yeri, öz mövqeyi var. Cabbarın yanında əyləşən həyat yoldaşı Ulduz xanımdır, bizim qohumdu, orta məktəbdə işləyir, dil-ədəbiyyat müəllimidir.

Məclisə kişilər çox sadə paltarda gəlmişdilər, pencək və ya toxunma köynəkdə, qalstuksuz. Qadınlar isə daha səliqəli, bir qədər daha baxımlı geyinmişdilər – bu da başa düşüləndir. Ulduz xanım yerə qədər sallanan tünd qırmızı rəngli gözəl don geyinmiş, boğazına güllü şərf bağlamışdı. Cabbar və Ulduz xanım şux hərəkət və dəbdəbəli geyimləri ilə seçilirdilər, yəqin ki, onlara göz qoyanların, gözaltı baxanların kiminin gözünü oxşayır, kiminin də gözünə batırdılar. Onlar sanki opera-balet teatrında tamaşaya və ya zənginlərin yığışdıqları kübar bir ziyafətə gəlmişdilər.

Elxan “təşəkkür edirəm, Teymur” deyərək, əlindəki badəni yuxarı qaldırıb, Cabbara tərəf baxdı, lakin onun şərəfinə söz demək üçün ağzını açmağa macal tapmadı, Cabbar onu qabaqladı, Teymurun həkimlik barədə deyə bilmədiyini demək zəruri idi:

– Teymur müəllim, həkim yox, baş həkim. Mən klinikanın baş həkimiyəm, iki ildən artıq…

Teymur istər-istəməz dodağını büzdü, Reyhana baxdı, Reyhan başını aşağı saldı. Elxan qaşını çatdı və “Eləmiiii?!” deyə, sözü uzatdı, sanki nə deyəcəyini tapmaq üçün vaxt qazanırdı. Lakin, o, yenə söz deyə bilmədi, bu dəfə Azad işə qarışdı:

– Baş həkim? O nə deməkdi? Baş həkimi? Başa baxan həkim?

Azadı tanıyanlar onun iş qarışdırmağa başladığını anladılar. Özünə gələn Elxan gülə-gülə onu dayandırdı:

– Baş həkim bilmirsənmi nədir? Klinikanın böyüyü, müdiri! Elə deyilmi, Cabbar qardaş?

Cabbar ona müraciət edildiyi üçün hörmət əlaməti olaraq ayaq üstə qalxdı və baş həkim vəzifəsini izah etməyə girişdi:

– Baş həkim səhiyyənin təşkili ilə məşğul olan, klinikanı idarə edən, onun yaxşı işləməsini təmin edən şəxsdir.

Azad qiymətli bir şey axtaran və birdən onu tapdığı üçün sevinən adama bənzəyirdi; bu halda çeynəmək və uzatmaq üçün mövzu tapmışdı:

– Dayan görək. Birinci – klinika nədir, öz dilimiz yoxdumu? Xəstəxana və ya Həkimxana demək lazımdır, Həkimxana daha yaxşı səslənir. Onun müdirinə isə həkimbaşı demək lazımdır! İkinci – baş həkim sözü altında nə yatdığını bilmək istəyirəm. Bu, yəqin baş həkimi deməkdir, yəni, başı müalicə edən! Dişə baxan həkimə diş həkimi deyilən kimi, başa baxana da baş həkimi deyilməlidir! Baş ağrısında sizin yanınıza gəlmək lazımdır, eləmi? – deyə o, üzünü Cabbara tərəf tutdu.

Cabbar “xəstələnməyin, işdir bir narahatlıq olsa, buyurun gəlin” deməklə kifayətləndi. O hələ burada bir lağ-lağ başladığını hiss etmirdi.

Azad:

– Deməli, “baş həkimi” deyəndə, başa baxan həkimdən söhbət gedir – deyib, azca düşündü və davam etdi:

– Yaxşı, baş mürəkkəb orqandır, dişlər ordadır, onlara baxan həkimə dedik ki, diş həkimi deyilir, Elxan müəllim, diş həkiminin elmi adı nədir?

Elxan dərhal cavab verdi:

Stomatoloq, elə deyilmi?

Azad:

– Hə! Üstəlik, diş həkimləri bütün digər həkimlərdən fərqli təhsil görürlər, Tibb universitetlərində stomatologiya ayrıca fakültə olur, düzdümü?

Cabbar Elxanın sözünə güc verdi:

– Hə, stomatologiya ayrı fakültədir, təhsil müddəti də beş ildir, tibbdə isə – altı ildir.

Azadı tanıyanlar onun qızışdığını və artıq dayana bilməyəcəyini başa düşdülər.

– Ay sağ ol! Göz də başda yerləşir, düzdümü, iki göz?! Onun da öz həkimi var – göz həkimi. Ona

elmdə nə deyirlər? – deyə, üzünü Elxana çevirdi.

Elxan asta danışandır, yaxşı bildiyi bir şeydən danışanda da bir az fikirləşir, ağzından sözü yavaş-yavaş, çeynəyə-çeynəyə, sinonimlər işlədə-işlədə çıxarır. Cabbar bu dəfə də Elxanı qabaqladı və xüsusi vurğu ilə "oftalmoloq" dedi.

Azad məclisi ələ almışdı, Cabbarı da ovsunlamışdı:

– Ay Allah ölənlərinizə rəhmət eləsin! Görürsünüz ki, başda nələr var?! Daha nə var? Boğaz, burun, qulaq! Bunların da öz həkimi varmı?

Yerdən "hə" səsləri eşidildi.

– Bəs onun elmi adı nədir?

Sükut. Deyəsən, həvəskarlar bunu bilmirlər. Reyhan yavaşcadan "lor həkim" dedi. Qəribə burasıdır ki, Cabbar bu dəfə tələsmədi, əli ilə Reyhana "dayan, gözlə" işarəsi verdi və üstün tonla dilləndi:

– Hə, bu bir az çətindir, həkim deyilsiniz ki, biləsiniz. Düzgün ardıcıllıq belədir: qulaq, burun və boğaz. Bu sahədə ixtisaslaşmış həkimə otorinolarinqoloq deyirlər! Sadə şəkildə Lor – həkim deyilir.

– Gördünüzmü? – deyə, Azad düzüb-qoşmağa davam etdi:

– Adam baş həkimidir, bilir. Yaxşı, dişin öz həkimi var, gözün öz həkimi, qulaq-burun-boğaz üçlüyünün də öz həkimi. Bizim əziz dostumuz Cabbar də baş həkimidir, amma bu üçündən biri deyil. Bəs onda nəyin həkimidir? Başda nə qaldı? Sifətmi? Deyəsən, ayrıca sifətə, dəriyə baxan həkim də var, onun elmi adı nə oldu? Dermatoloq!

Bu dəfə Azad sualına özü cavab verdi, öz biliyini nümayiş etdirdi. Amma söhbəti bitirməmişdi:

– Yaxşı, başda nə qaldı? Bizim başa baxan həkimimiz Cabbar doxdur hansı sahədə ixtisaslaşıb? Başda, deyəsən, saçdan başqa heç nə qalmadı. Deməli, bizim əziz qardaşımız Cabbara ancaq saç həkimi olmaq qalır. Saç doxdurusanmı, qardaş? – deyə o, qalib nəzərlə Cabbarı süzdü, sonra ləzzətlə ətrafa baxdı, az qala hamını bir-bir gözdən keçirdi.

Azad dincələ bilmirdi:

– Saç da lazımlı şeydi, adamın saçı da ağrıya bilər.

Bu yerdə Elxan işə qarışdı:

– Molla Nəsrəddin "haran ağrıyır?" – deyə, bir xəstədən halını soruşur. Xəstə "saçım ağrıyır"– deyə, cavab verir. Molla təəccüblənir: nə yeyibsən? Xəstə: buz yemişəm. Molla gülür: nə yeməyin adam yeməyidir, nə də xəstəliyin.

Azad:

– Yəni deyirsən ki, saç doxduru lazımlı həkim deyil?

Cabbar güldü, onun gülüşü Azadı təəccübləndirdi, axı o, əmin idi ki, Cabbarın işini bitirib, onu məhv edib. Cabbarın dillənməyə halı olmamalı idi. Lakin Cabbar sıx saçlarını əli ilə geri darayıb, ötkəm səslə sözünü dedi:

– Dermatoloq saça da baxır. Saç və saçaltı dərini müalicə edən həkimin xüsusi adı da var: trixoloq! Azad müəllim, saçınız çox seyrəlib, başa saç əkmək, başınızı düzəltmək mümkündür. Hər zaman qulluğunuzda hazıram!

Teymur gülə-gülə barışdırıcı gediş etdi:

– Cabbar tək həkim deyil, həm də iş adamıdır, Azadın təbirincə baş həkimidir və belə çıxır ki, başınıza saç əkə bilər. Burdakı müştərilərə, yəqin ki, güzəştlər edəcək.

Azad təslim olana oxşamırdı:

– Saç əkənə niyə həkim deyilməlidi ki? Peşəsi əkməkdirsə, adına əkinçi demək düz deyilmi?!

Məclisdə ağsaqqal sayılan, "el adamı" kimi tanınan Musa ortanı rahatlamağın vaxtı çatdığını hiss etdi:

– Ay Azad, əzizim, görürəm söz oyununa marağın var. Əslində, oyun yaxşı şeydir, Şekspir (Shakespeare) demişkən, həyat bir səhnədir, biz də oyunçu, qadın olsun ya kişi, hərəmizin bir rolumuz var, o səhnədə oynayırıq. Əlbəttə, sən özün yaxşı bilirsən ki, ad olaraq "başın həkimi" olsun, "əkinçi" olsun, saç tikdiyi üçün "dərzi" olsun, fərqi yoxdur. Ad şərti şeydir, sənə Azad, mənə Musa adı qoyublar, ayrı ad qoysalar təbiətimizdə heç nə dəyişməyəcəkdi.

Azad əlini döşünə qoyub Musa müəllimə doğru yüngül təzim etdi.

* * *

Yeməklərin böyük hissəsi yeyilmişdi, qalıqları süfrədən yığışdırıb meyvə və çay gətirdilər. Bunu qadınlar, evin oğlu və qızı etdi.

Reyhan xanım piano stulunu düzgün yerinə qoyub oturdu və barmaqları ilə şirmayi dillərdə gəzişdi, bu gəzintidən süzülən gözəl melodiya məclisi vəcdə gətirdi. O, dönüb musiqi ilə dolu mehriban nəzərlə əvvəl Teymura, sonra məclisə baxdı. "Həkim qız"ı çalın dedi kimsə. Oxumaq istəyənlər və ürəyi çırpınanlar pianoya yaxınlaşdılar. Kişili-qadınlı bir dəstə mahnını oxumağa girişdi. Azad burda da qəmiş qoymağa yer tapdı:

– Başım da ağrımır ki,
Bir yanına gəlim mən.
Geyinib ağ xalatı
Qəlbimi dinləyəsən.

Ay canım, həkim xanım nə biləcək başın doğrudan da ağrıyır, ya yox. Yanına getmək istəyirsən, get, de ki, başım ağrıyır.

Öz aralarında oxuyub-çalan və arada şirin söhbət edən qadınlar kişilərin bu çəkişməsinə maraq göstərmirdilər. Amma Ulduzun qulağı burda imiş və ya əri ilə bağlı söhbəti izləyirmiş. O, gözlənilmədən Azadın həkim qız məsələsinə münasibət göstərdi:

– Deyirsiniz ki, adam sevdiyi qıza yalan söyləsin, onu aldatsın ki, başım ağrıyır? Bu necə sevmək oldu?

Bu etiraz Musa müəllimin xoşuna gəldi, öz qaydası ilə əlini əlinə vurub ucadan güldü və Azada baxdı:

– Hə, nə deyirsən, yalan danışmaq, sevdiyi qızı aldatmaq yaxşı şeydimi?!

Azad öz ampluasında idi, sədaqətlə öz rolunu oynayırdı. O, gözü ilə Cabbarı axtardı:

– Bir də, doxdur, həkimə gəlib deyəndə ki, başım ağrıyır, həkim niyə xəstənin qəlbini dinləməlidir? Bu birbaşa hücum Cabbarı çaşdırdı, bir az fikirləşdi:

– Hər şey ürəyə bağlıdır, qan-damar sistemi…

Teymur araya girdi:

– Baş ağrısının dərmanı musiqidir, həyəcanı, stresi dağıdır. Bir də, şair həkim deyil ki, şairə lazımdır ki, sevgilisi onun ürəyini dinləsin, görmürsənmi nə deyir: "Qoy toxunsun sinəmə, o şəfqətli əllərin". Sevgi olan yerdə təmas mühümdür!

Məclis sədri Elxan da çəkişmə, söz oyunu və lağ-lağa öz töhfəsini verdi:

– Bu fiziklər, riyaziyyatçılar qəribə adamlardır, normal adam kateqoriyasında deyillər. Məntiq onların əsas iş alətidir, amma bəzən ağ edirlər. Sonra da öz hərəkətləri barədə lağ-lağ, zarafat düzəldirlər. Ləzzətlə oxuduğumuz "Физики любят шутить" ("Fiziklər zarafatı sevirlər") kitabını yada salın!

Oyun havası çalındı. Ulduz süzə-süzə qadınları, həmçinin Cabbarı rəqsə dəvət etdi. Cabbar yaxşı oynayırmış. O, oynaya-oynaya Azadı çağırdı. Azad güldü, sağ əlini yellədi; bu, yəqin ki "eh, olsun" deməkdi və rəqsə başladı. Sonra sağa-sola baxdı, hərə bir işlə məşğuldu - yeyən, içən, söhbət edən, rəqs edən, çalan, oxuyan – hamının başı qarışıqdı. Azad oynaya-oynaya Cabbara göz vurdu:

– Doxdur, mən ölüm düzünü de, başa saç tikə bilirsənmi?

Cabbar:

– Müəllim, mən baş həkiməm, siz deyən kimi, həkimxananın böyüyüyəm, hər cür məsələni həll edə bilirəm. Əgər qiymətli başınıza saç əkdirmək istəsəniz, indicə dedim – qulluğunuzda hazıram.

Azad:

– Zəhmət olmasa, telefon nömrənizi verin.

Cabbar o yan, bu yana boylandı, Teymurun oğlu gözünə sataşdı:

– A bala, bir vərəq kağız ver mənə.

Uşaq kağız gətirdi, Cabbar kağızı aldı, bir an düşündü və yazıb Azada uzatdı. Azad "sağ ol" deyib, cibinə qoymazdan əvvəl kağızdakı yazıya baxdı. Kağızda "Baş həkim" ifadəsinin sonuna iri qara hərflə böyük "İ" əlavə edilmişdi, Azad yazıya baxıb güldü, telefon nömrəsinin yanında "Baş həkimİ, əkinçi doxdur Cabbar" yazılmışdı.

# GÖRÜŞLƏRİMİZ DAVAM EDİR...

(*Lirik esse*)

Görüşünə gəlmişəm, gözəlim! Tez-tez gəlirəm görüşünə, səninlə şərtləşmədən, sənin razılığını almadan, vaxt təyin etmədən görüşünə gəlirəm. Neyləyim, zəng edirəm, cavab vermirsən, əvvəl “bu nömrə təyin olunmayıb” deyirdilər, son vaxtlar isə sadəcə telefon susur, heç bir cavab, heç bir səs yoxdur. Əvvəlki kimi uça-uça deyil, ağır-ağır, düşünə-düşünə gəlirəm görüşünə...

“Onunla görüşə niyə belə tez-tez gedirsən”– deyə məndən soruşsalar, yəqin ki, cavab verməyəm, cavab vermək fikrim olmaz. O ki, qaldı sən özün, sən soruşa bilsəydin, cavabım birdir: neyləyim, sənsiz dura bilmirəm, sənsiz dinclik tapa bilmirəm, sənsiz yaşaya bilmirəm.

Səninlə görüşə gəlmişəm. Dinmirsən, danışmırsan, gülmürsən, zarafat etmirsən. Mat-məəttəl üzünə baxıram, yanıb-yaxılıram.

Sənin görüşünə heç vaxt bu qədər tez-tez getməmişdim. İş-güc, ailə, qayğılar bizi evə və işə bağlamışdı. Əsas görüş yerimiz evimiz idi. İş yerimizdə də görüşürdük. Hərdən çox sevdiyimiz İçəri şəhərdə bəlli bir yerdə və vaxtda görüş təyin edirdik, bir-birimizdən ayrılıqda gedirdik ora, tez çatan gecikəni gözləyirdi, gecikəni zarafatla danlayıb, sonra birlikdə gəzirdik. Hərdən dar küçələrdə bir-birimizi itirir və böyük ləzzətlə bir-birimizi axtarırdıq, tapanda gülüşür və sevinirdik – çoxdan bir-birini görməyən adamlar görüşəndə olduğu kimi.

İndi tam sənə bağlanmışam. Deyim ki, ağıllanmışam, yox, belə deyil. Olan ağlım da yavaş-yavaş azalır, belə desəm yəqin ki, daha doğru olar. Sadəcə... Sadəcə çox sevdim səni... Səni sevə-sevə sənə yenidən vuruldum. Vurğun adam vurulduğunun quluna çevrilməsə də, ona bağlanır, onsuz dura bilmir, onsuz yaşaya bilmir.

Təzə tanış olduğumuz zaman səninlə görüşmək istəyir, amma bunu sənə deyə bilmirdim. Xoşbəxtlikdən sən vəziyyətimi, ürəyimdən keçəni yaxşı başa düşürdün, axı ürəyim, sevgim gözlərimdə əks olunmuşdu. Gözlərim sevgi ilə dolmuşdu. Göz tək ətrafı, gen dünyanı görmək üçün deyil ki! Göz insanın keçirdiyi hissləri açıq ifadə edir. Ürəyin aynası deyilmi göz?! Göz dildən daha güclü, daha həssas, daha cəsurdur. Dilim sevgimi bəyan etməyə cürət etmir, susurdu, gözlərim isə səni görən kimi işıqlanır, böyüyür, durmadan danışırdı. Dilim lal olur, gözlərim sevgi nəğməsi oxuyurdu. Sən öz dərin musiqi duyumunla bu sevgi nəğməsini eşidir, ona səs verirdin.

Görüşməyə başladıq. O görüşlər canıma hopdu, hüceyrələrimə təsir etdi, məni dəyişdirdi, mənə güc-qüvvət verdi, canımı sevgi ilə doldurdu. Gəzə-gəzə böyük ləzzətlə söhbət edirdik, şeir deyir, mahnı oxuyur, dostlar, qohumlar, dağ, dəniz, gül-çiçək, keçmiş və gələcək və daha nələrdən danışmırdıq?! Əvvəl titrəyə-titrəyə əllərinə toxundum, əlindən tutdum. Amma əl-ələ tutaraq gəzməkdən daha çox yanaşı, sərbəst yeriməyə meyl edirdik. Qol-qola gəzməyə də alışmadıq, ətrafda gördüklərimizi təkrarlamağa çalışmadıq. Amma gülüşlər, zarafatlar görüşlərimizin bəzəyi idi. Sən sadə, açıq və şən idin, mən isə – cürətsiz və sevgidən məst olmuş sərsəm...

Yaşlaşdıqca bərabər gəzərkən əl-ələ tutmağa meyl etdik, xüsusilə xarici ölkələrdə, uzaqlarda – yəqin ki, bir yerdə olmağın həzzini bir yerdə dadmaq üçün. Qalan hər şey əvvəlki kimi idi – zarafat dolu söhbətlər, yaxın gələcəyə doğru necə, hansı yollarda gedəcəyimiz barədə fikirlər, məhəbbətlə bir-birini süzən gözlər...

* * *

Yenə görüşünə gəlmişəm, gözəlim! Ağ paltar geymisən. Əvvəllər sən ağ paltara çox maraq göstərmirdin. Sənə bu ağ paltarı mən almışam, mən tikdirmişəm, sənin xəbərin yoxdur, bu dəfə, həmişə etdiyim kimi, sənin zövqünə arxalanmamış, öz bildiyim kimi hərəkət etmişəm. Amma möhkəm və uzunömürlü olsun deyə bu paltarı ağ mərmərdən tikdirmişəm, gözəlim! Sən necə də gözəl və məlahətlisən – ağ mərmər sinə, mərmər buxaq, mərmər bədən, ağ sədəf ağızda mehriban təbəssüm. Hər görüşünə gələndə mərmər saçlarını sığallayıram, əllərimlə ehmalca, köksümü otürə-ötürə mərmər üzünə, boynuna toxunuram. Sonra gözlərimi yumub, daxilimdəki sevgi ilə yaşayıram.

Səni tez-tez görmək üçün, səni istədiyim vaxt ziyarət etmək üçün sənin yaxınlığında yaşayıram. Bu görüş yerimiz həmişəlikdir, dəyişməyəcək...

Sənin görüşünə ən çox gələn mənəm – bu, təbiidir. Amma, gözəlim, onu da deyim ki, səni sevən, sənin görüşünə gələn çox insan var. Tanışlar, dostlar, qohum-əqrəba, müəllim və şagirdlər, bizimkilər və xaricilər səni ziyarət edirlər. Ziyarətgahının qapısı həmişə açıqdır. Xəbərin varmı, sən müqəddəsləşmisən?! Hamı önündə təzim edir.

Gözəlim, sən gül-çiçəyi çox sevirsən, hamı sənə gül gətirir. Sənin ziyarətgahında öz kiçik bağçan

var, xoş qoxulu, güllü-çiçəkli. Qara rəngli çəpərlə əhatə olunmuş yaşıl başçada, rəngbərəng – al-qırmızı, açıq və tünd göy və zümrüd rəngli çiçəklər arasında sən ağ paltarlı mələyi andırırsan. Öz bənzərsiz təbəssümünlə ətrafa işıq saçırsan. Görüşəndə bağçandakı yarpaqlardan dərib qoxulayır, sanki sənin qoxunu almaq üçün onları yanımda gəzdirirəm.

* * *

Gözəlim, onu da deyim ki, daha bir görüş yerimiz var. Orada əvvəllər də görüşürdük, amma hərdənbir. Və çox qəribə görüşlər idi onlar, yadındamı?! Mən görüşün içində olanda orada nə baş verdiyindən sənin xəbərin olmurdu, eynilə sən mənimlə görüşdüyünü söyləyəndə mənim o görüşdən xəbərim olmadığı görünürdü. O görüşlər barədə bir-birimizə danışmalı olurduq. Yuxudan duranda səni gördüyümü və necə gördüyümü danışırdım. Səni çox zaman gülərüzlü görsəm də, bəzən qaşqabaqlı olduğunu, məndən nəsə narazı olduğunu görür, könlünü almağa çalışırdım. Yuxumu sənə söyləyəndə, səndən "niyə qaşqabaqlı idin" – deyə soruşanda "özün de, yəqin nəyisə düz etməmisən, mənə düzünü de, gizlətmə, yenə nə iş çıxartmısan" – deyib, gülə-gülə üstümə düşürdün.

Gözəlim, indi səninlə yuxuda lap tez-tez görüşürük, sən gəlirsən görüşə, gözlənilmədən, zəng etmədən, xəbər vermədən, mənimlə şərtləşmədən, vaxt təyin etmədən. Həmişəki kimi şən və gözəlsən, məmnuniyyətlə mənə çay verirsən, qulluq edirsən, mən də səni qucaqlayıb öpürəm. Amma, yuxudakı görüşlərimiz, o cilvəli baxışların elə bil cəmi bir an çəkir, bir fotoşəkil və ya filmdən bir neçə saniyəlik fraqment kimi görünüb yoxa çıxır. Of, yuxudan ayılanda, görüşlərimiz yarımçıq qalanda bilsəydin ürəyim necə ağrıyır. Artıq yuxudakı görüşlərimizdə yanımda qalmayacağını, harayasa gedəcəyini bilirəm. Haraya, bilmirəm. Nədənsə səni saxlaya bilmirəm, "getmə" də deyə bilmirəm, nədənsə. Bir dəfə məni danladın: "səliqəli ol, geyiminə fikir ver, üzün təmiz, ayaqqabın təmiz, paltarın təmiz olsun". Son görüşdə "niyə üzün tüklüdür" – deyə, məni danladın. Dedim: "Cəmi iki gün qırxmamışam; vallah indi başqa zamandır, hamı saqqal qoyur, əksəriyyət üzü tüklü gəzir". Razı qalmadın: "sənin onlarla nə işin var?" Sonra "saçın niyə tökülüb, baxmırsan saçına"– dedin. Yuxudan qalxanda düşündüm: gərək deyəydim ki, saçım ona görə tökülür ki, sığal görmür, sən həmişəki kimi saçımı sığallamırsan.

Acizəm yuxuda, çox acizəm, əlimdən heç nə gəlmir. Birdən duman gəlir, ağ ya qara duman deyil, rəngli – gah göyümtül, gah solğun qırmızı rəngli. Duman dağılanda sən yoxa çıxırsan. Eh, yanımda deyilsən ki, bu görüşlərimizi, yuxularımı sənə danışam.

* * *

Həyatda çox iz qoymusan, gözəlim, dərin, silinməz izlər. İzinlə gedirəm, o izlər bizi görüşdürür, o izlərdə görüşürük, xəyalın mənimlədir. Çoxsaylı, çoxçalarlı foto-şəkillərinlə, video-görüntülərinlə bir yerdəyəm, sənun surətin gözümün önündədir, gözümün işığındadır. Səsin də mənimlədir, şirin ləhcən eşidilir, duzlu söhbətlərini dinləyirəm. Pianoda çaldığın havalar, mahnılar mənimlədir, musiqili görüşlərimiz davam edir. Sevə-sevə çaldığın çoxsaylı xalq mahnıları, populyar bəstəkar mahnı və romansları, müxtəlif muğam təsnifləri, oyun havaları, türk və rus mahnıları, klassik musiqi parçaları qulağımda, dilimdə-dodağımda, ürəyimdədi. Musiqi, yəqin ki, hər gün və ən çox görüşdüyümüz duyğulu məkandır. Sevdiyin cürbəcür musiqiləri bərabər dinləmişik, indi onlara qulaq asır və zümzümə edib oxuyuram, çaşanda məni düzəldirsən – həmişəki kimi. Bəstələdiyin səkkiz mahnı səkkiz parlaq ulduz toplusudur, orada birlikdəyik, sənə vurğun bir söz adamı olaraq yanındayam, amma onlara həyəcansız, ah çəkmədən, köks ötürmədən qulaq asa bilmirəm.

Evdə, yerdə, torpaq üstündə iz qoymusan, o izlərə baxıram, səni görürəm. Gəzdiyin cığırlarda və otun üstündə sənin izinlə gəzirəm, oturub dincəldiyin yerlərdə ayaq saxlayıb otururam, içimdə səninlə söhbət edirəm. Əkdiyin gülləri sığallayanda əllərimiz bir-birinə toxunur, birlikdəyik. Sənin sevdiyin güllərlə – inci çiçəyi, qızıl gül, yasəmən, nərgiz, lalə və pionla qarşılaşanda, hansı məkan və nə zaman olursa olsun, özümü sənin yanında hiss edirəm, sevdiyin gülləri və sevdiyim səni eyniləşdirirəm – qoxuları içimə çəkirəm, incəliklər və gözəllikləri gözüm və qəlbimlə seyr edirəm.

Səninlə görüşlərim davam edir, gözəlim – görüşə biləcəymiz hər yerdə – ağ mərmər paltar geyimində məni qarşıladığın kiçik bağçanda da, yuxularımda da, həyatımızda buraxdığın unudulmaz maddi və mənəvi izlərdə də, ürəyimdə, beynimdə, bütün əzalarımda da. Görüş yerlərimiz qalsa da, dəyişsə də, mənim səninlə görüşdüyümdən bixəbər olsan da, görüşlərimiz davam edir, gözəlim, bu görüşlərə heç kim mane ola bilməz, nə qədər ki, varam, varlığım sənə bağlıdır.

Darıxma, görüşünə gəlirəm…

# ZAHMAN

(*Bəhri-təvil*)

Əzizim dostum, yoldaşım, nə yoldaş – əziz qardaşım, nə qardaş – əziz sirdaşım, bilirsən az deyil yaşım, ağrımış, bəlalar çəkmiş, get-gedə ağarmış başım, nə ağrıdım başını, ey dostum Zahman, yadındamı de o zaman, səni döyən, səni söyən müəllimlərə, heç kimə vermədin aman, evə qaçdın, Qardabanda, bircə anda tüfəngi əlinə aldın, baxmadın solu-sağına atəş açdın məktəbinə, müəllimlər otağına və əlbəttə qayğısız gənclik çağına, yer-göy bir-birinə dəydi, dostum Zahman, söylə o nə hərəkətdi, xalqın səbrini tükətdi, söylə o hərəkət nəydi, işlərini yaman əydi, "məktəbi tərk et" dedilər, "həmən burdan get" dedilər, hirslənib rusa döndülər, xahişlərə "net" dedilər, eybi yoxdu, bu bir xoxdu, taleyin cilvəsi çoxdu, insafdırmı bir gənc sönə, ağlı başında olanlar yox, yox dedi dönə-dönə, Qardaban çəkildi geri, Kosalılar çıxdı önə, beləliklə, əziz Zahman, nə saraldın, nə də soldun, nə də saçlarını yoldun, Kosalıda, bu gözəl orta məktəbdə şagird oldun, çox sevindik sən də, biz də, on birinci sinfimizdə – burda oxumaq gərəkdi, bunu vaxtında, tez qandın, layiqli bir ad qazandın, biz səni dost qəbul etdik, sən də bizləri dost sandın, oxudun artdı savadın, doğrudur ki, bəzən yandın uzaqdakı qızlar üçün, neçə sevgili yar üçün, sən burda da dinc durmadın, qızlarla



çəkildi adın, eh, kimə yaddır qız, qadın, biz də sənə yoldaş olduq, sevgi ilə biz də dolduq, idmana da çox baş qatdın, uğurlara imza atdın, yerinə yetdi diləyin, bükülmədi heç biləyin, yerə dəymədi kürəyin, amma xırda şeydir bunlar, vacib olan başqa şey var, qızılmış sənin ürəyin, beləcə əzizim Zahman, dəyişdi keçdi o zaman, zaman verməyir ki, aman, orta məktəb sona yetdi, hərə bir tərəfə getdi, hərə bir tərəfdə itdi, hərə bir cür seçim etdi, dedin mühəndis olacam, ev tikəcəm, yol salacam, təhsilini vurdun başa, yolun düşdü kənd-şəhərə, dağa-daşa, qurub tikdin, etdiklərin bir tamaşa, sonra birdən mail oldun gözə-qaşa, yaddan çıxdı gözəl Maşa, geri çəkildi Nataşa, dedin bəsdir, dedin yetər, bəxt ulduzun parıldadı, bəxtinə düşdü bir xanım, Tanrı dedi o gülü dər, özü saf zər, adı Yetər, həyatın yaxşı duruldu, doğrudur ki, qollarına bənd vuruldu, amma gözəl isti ocaq, ev quruldu, çalışdınız gecə-gündüz, yolunuz düz, asta-asta bö-



yüdünüz, bax, hər iki gözəl qız da – həm Nazpəri, həm də Aynur burdadılar – yanımızda, bir də, bir də, dilim gəlmir, birdən-birə bilməm niyə göydən yerə od ələnmir, həyatın üzü çox imiş, ömrə vəfa heç yox imiş, gül kimi bir həyat soldu, birdən-birə evdəki mələk yox oldu, dünya sənə dar göründü, dünya mənə, dünya sizə, dünya bizə dar göründü, dünya dumana büründü, eşqlə qanad çalan könül yerlərə düşdü, süründü, amma, dostum, sən hər zaman fikrə dalıb onunlasan, bilirəm bu deyil asan, bil ki, bizdən gedən gözəl qəlbimizdə yuva salıb, deməli o, səninlədir, bizimlədir, yox olmayıb, əzizim,





dostum, yoldaşım, nə yoldaş – əziz qardaşım, nə qardaş – əziz sirdaşım, bilirsən az deyil yaşım, görürsən ağarmış başım, quruyan deyil göz yaşım, amma həyat şirin şeydir, əlimizdə şərbət, meydir, yaşamağın dərin-dərin mənası var, hər məxluqun atası var, anası var, qardaş, yoldaşı, dostu var, dostlarının dosta deməyə tostu var, dostum, demə qocalmışam, sən həyatı duya-duya yaşamısan, sən həyatdan bac almısan, sən ki indi yetmiş



beşə ucalmısan, təbrikimi qəbul eylə, səninlə mən ayrı deyil, birik, dostum, səninlə mən yol gedirik, qarşımızda gör nələr var, yeni-yeni zirvələr var, onları kim fəth edəcək, əlbəttə sən, sən fəth eylə, qalan hamı sənin izinlə gedəcək və səninlə, əziz dostum Zahman ilə fəxr edəcək, yaşa-yaşa, ömür yolu bir tamaşa, bu yolda sən üzüağ ol, gəl mən səni qucaqlayım, deyim var ol, deyim sağ ol, sağ ol, sağ ol !!!

**06.11.2022**

## SƏN MƏNİ NİYƏ SEVDİN?

(*Zarafat*)

Yanında heç qalammadım
Həmdəmin də olammadım
Başına da dolanmadım –
Sən məni niyə sevdin?

Ağlasan da, gülsən də sən
Sənin ki olan deyiləm
Xoşuma çox gəlsən də sən
Səni ki alan deyiləm –
Sən məni niyə sevdin?

Yollarını gözləmədim
Addım-addım izləmədim
Səni heç əzizləmədim –
Sən məni niyə sevdin?

Gəl aləmi seyrə dalaq
Gəl dünyadan hesab alaq
Dünyada min rəng, lisan var
Gözünü aç, ətrafa bax
Gör nə qədər xoş insan var
Çoxu da məndən cavanlar –
Sən məni niyə sevdin?

Məndə nə var? Nə uca boy
Nə minillik şan-şöhrət, soy
Nə cüssə, nə enli kürək
Olan-qopan: bir quru can
Və...yumruq boyda bir ürək –
De, ay mələk, söylə görək
Sən məni niyə sevdin?

Sanki yatmışdın, oyandın...
Qəfil oda düşdün, yandın
Bəlkə bu sənə əyandı –
Sən məni niyə sevdin?

Son vaxtlar heç sözüm keçmir
Gözüm də dünyanı seçmir
Səndən heç gözüm su içmir
Sən məni niyə sevdin?

## XƏZƏR UNİVERSİTETİ MÜƏLLİMİNİN KİTABI ÇAP OLUNUB




Xəzər Universitetinin müəllimi Elza İsmayılovanın“Koroğlu” dastanının Azərbaycan və Türkiyə variantları Avropada” adlı dərs vəsaiti Xəzər Universiteti Elmi Şurasının 6 may 2022-ci il tarixli 1/21-22 saylı qərarı ilə “Turan Reklam” nəşriyyatında çap olunub. Elmi redaktoru filologiya elmləri doktoru Muxtar Kazımoğlu (İmanov), rəyçilər filologiya üzrə fəlsəfə doktorları Dilbər Zeynalova və Xatirə Yusifovadır.

Dərs vəsaitində folklorşünaslığın aktual və az araşdırılmış problemlərindən biri olan “Koroğlu” dastanının Azərbaycan və Türkiyə variantlarının Avropa dillərinə tərcüməsi, nəşri və tədqiqindən bəhs edilir. Bu sahə ilə bağlı görülmüş işlər dəyərləndirilir, bir çox məsələlərə aydınlıq gətirilir. Avropalı tədqiqatçıların “Koroğlu” haqqında yazdığı elmi məqalələr və kitablar geniş şəkildə araşdırılır. Dərs vəsaiti ali məktəb müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur. Kitabdan bu sahə ilə maraqlananlar da faydalana bilərlər.

## KHAZAR UNIVERSITY LECTURER'S BOOK PUBLISHED

A textbook titled "Azerbaijani and Turkish Versions of 'Koroglu' Epic in Europe" by Khazar University lecturer Elza Ismayilova has been published following the decision No. 1/21-22 of Khazar University Scientific Council dated May 6, 2022. The scientific editor is Doctor of Philological Sciences Mukhtar Kazimoglu (Imanov), and reviewers are PhDs in Philology Dilbar Zeynalova and Khatira Yusifova.

The textbook addresses one of the current and less-studied issues in folklore studies: the translation, publication, and research of Azerbaijani and Turkish versions of the "Koroglu" epic in European languages. The work evaluates existing research in this field and clarifies numerous aspects. Scientific articles and books written by European researchers about "Koroglu" are extensively analyzed. The textbook is designed for university teachers and students. Those interested in this field can also benefit from the book.

# “XƏZƏR”İN XARİCİ NƏŞRLƏRİ

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ “*DAILY SABAH*”DA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (AIR Center) şöbə müdiri Dr. Cavid Vəliyevin "Armenia's confession: Ethnic cleansing of Azerbaijanis and its legacy" (“Ermənistanın etirafı: Azərbaycanlılara qarşı etnik təmizləmə və onun irsi”) mövzusunda məqaləsi “*Daily sabah*”da dərc edilmişdir.

Məqavələyə keçid:

## POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT FACULTY MEMBER'S ARTICLE PUBLISHED IN "*DAILY SABAH*"

Dr. Javid Valiyev, faculty member of the Department of Political Science and Philosophy at Khazar University and department head at the Center for Analysis of International Relations (AIR Center), has published an article titled " Armenia's confession: Ethnic cleansing of Azerbaijanis and its legacy" in "*Daily Sabah*".

Link to the article:

*https://www.dailysabah.com/opinion/op-ed/armenias-confession-ethnic-cleansing-of-azerbaijanis-and-its-legacy?fbclid=IwY2xjawIINxNleHRuA2FlbQIxMAABHf2x6w0EzUpCZkCBM-vzboSdFuaGUQX7aewCUECCkvgor0LCthWuDrhmiA_aem_hIC5_IkoLjfDQ8jBAav3Gg*

## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINDA İŞGÜZAR SƏFƏRDƏ

## KHAZAR UNIVERSITY DELEGATION CONDUCTS BUSINESS VISIT TO KINGDOM OF SAUDI ARABIA




*Omar Knio, Hamlet İsaxanlı*

Yanvarın 14-15-də Xəzər Universitetinin nümayəndə heyəti Səudiyyə Ərəbistanına işgüzar səfər çərçivəsində Kral Əbdüləziz Universiteti və Kral Abdullah Elm və Texnologiya Universitetində (KAUST) rəsmi görüşlər keçirdilər.

Xəzər Universitetinin nümayəndə heyəti Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, İdarəetmə və tələbə işləri üzrə prorektor Prof. İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı Prof. İnqilab Əhmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyevadan ibarət idi.

Səfər zamanı nümayəndə heyəti Ciddə şəhərində yerləşən Kral Əbdüləziz Universitetində müx-

A delegation from Khazar University conducted official meetings at King Abdulaziz University and King Abdullah University of Science and Technology (KAUST) during a business visit to Saudi Arabia on January 14-15, 2025.

The Khazar University delegation comprised Professor Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees; Professor Isaxan Isakhanli, Vice-Rector for Management and Student Affairs; Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management; Professor Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business; Dr. Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering; Dr. Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology; and Fatima Valiyeva, Head of International Relations Department.

During their visit to King Abdulaziz University in Jeddah, the delegation toured various faculties and

təlif fakültə və tədqiqat mərkəzlərinə baş çəkdi. Nümayəndə heyəti əvvəlcə Kral Fəhd Tibb Tədqiqatları Mərkəzində aparılan elmi-tədqiqat işləri ilə tanış oldu. Sonra nümayəndə heyəti Turizm fakültəsi, Tətbiqi tibb elmləri fakültəsi və idman sahəsi ilə tanışlıq görüşləri keçirdi. Turizm fakültəsinin tələbələri tərəfindən qonaqlar böyük səmimiyyətlə qarşılandılar. Nümayəndə heyətinin Kral Əbdüləziz Universitetinin prezidenti Dr. Tareef Yousuf Alaama və prorektorlar ilə keçirdiyi görüşdə əməkdaşlıq imkanları müzakirə olundu.

Yanvarın 15-də isə Xəzər Universitetinin nümayəndə heyəti Thuval şəhərində yerləşən Kral Abdullah Elm və Texnologiya Universitetinə (KAUST) səfər etdi. İlk olaraq Təhsil və akademik məsələlər üzrə müvəqqəti prorektor Prof. Omar Knio, Prof. Arwa Al-Aama, prorektorun müşaviri - Təhsil üzrə əməkdaşlıq və İşə qəbul şöbəsinin direktorunun iştirakı ilə əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə görüş keçirildi. Görüşdə hər iki universitet öz fəaliyyətləri haqqında məlumat verdilər. Daha sonra KAUST-un müasir laboratoriyaları, muzey və kitabxanasına info-tur təşkil edildi. Universitet rəhbərliyi, professor heyəti və tələbələrin iştirakı ilə nahar yeməyi təşkil olundu. Görüşlər və təqdimatlar zamanı iki universitet arasında birgə layihələrin həyata keçirilməsi, tələbə mübadiləsi və elmi-tədqiqat sahəsində əməkdaşlıq imkanları geniş şəkildə müzakirə edildi.

Sonra xatirə şəkli çəkildi və hədiyyələr təqdim olundu.

research centers. They first familiarized themselves with the scientific research conducted at the King Fahd Medical Research Center. Subsequently, they held introductory meetings with the Faculty of Tourism, Faculty of Applied Medical Sciences, and sports facilities. Tourism faculty students warmly welcomed the guests. The delegation discussed potential collaboration opportunities during their meeting with Dr. Tareef Yousuf Alaama, President of King Abdulaziz University, and vice-rectors.

On January 15, the delegation visited King Abdullah University of Science and Technology (KAUST) in Thuwal. An initial meeting was held with Professor Omar Knio, Acting Vice President for Academic Affairs, Professor Arwa Al-Aama, and the Vice President's Advisor - Director of Educational Partnerships and Recruitment Department, to discuss cooperation possibilities. Both universities shared information about their respective activities. Subsequently, an informational tour of KAUST's modern laboratories, museum, and library was organized. A luncheon was hosted with the university administration, faculty members, and students.

During the meetings and presentations, extensive discussions were held regarding the implementation of joint projects, student exchange programs, and opportunities for scientific research collaboration between the two universities.

The visit concluded with a commemorative photo session and exchange of gifts.



## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ “*APPLICABLE ANALYSIS AND DISCRETE MATHEMATICS*” JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSORS' JOINT ARTICLE PUBLISHED IN "*APPLICABLE ANALYSIS AND DISCRETE MATHEMATICS*" JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin “Impulsive q-Sturm-Liouville problems” (“İmpulsiv q-Şturm-Liuvill məsələləri”) adlı birgə məqaləsi “*Applicable Analysis and Discrete Mathematics*” jurnalında (2024, Cild 18, № 2) dərc edilmişdur. Qeyd edək ki, “Applicable Analysis and Discrete Mathematics” jurnalı “Web of Science” və “Scopus” verilənlər bazalarında indekslənib.

Məqalədə impulsiv q-Şturm-Liuvill məsələləri tədqiq edilir. Əvvəlcə sərhəd şərtlərinin vasitəsi ilə məsələnin simmetrikliyi göstərilir. Sonra isə belə tənliklər üçün həllin mövcudluğu və yeganəliyi müəyyən edilir. Nəhayət, xarakterik determinant və Qrin funksiyasının köməyi ilə məxsusi funksiyalar üzrə ayrılış düsturu əldə edilir.

A joint article titled "Impulsive q-Sturm-Liouville problems" by Academician Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor of the Mathematics Department, and Professor Bilandar Allahverdiyev from the same department, has been published in the journal "*Applicable Analysis and Discrete Mathematics*" (2024, Volume 18, No. 2). It should be noted that "Applicable Analysis and Discrete Mathematics" journal is indexed in "Web of Science" and "Scopus" databases.

In this study, impulsive q-Sturm-Liouville problems are considered. First, symmetry is obtained with the help of boundary conditions. Then, the existence and uniqueness problem for such equations is discussed. Finally, eigenfunction expansion was obtained with the help of characteristic determinant and Green’s function.

*Məqaləyə keçid: https://pefmath.etf.bg.ac.rs/component/papers/?vol=18&no=2&year=2024*
*https://pefmath.etf.bg.ac.rs/*




## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ “*КУЛЬТУРОЛОГІЧНИЙ АЛЬМАНАХ*”DA

Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Ruslan Xəlilovun "Borden Parker Bowne and American Personalism" (“Borden Parker Bowne və Amerika personalizmi”) adlı məqaləsi “*Культурологічний альманах*”da dərc edilmişdir (Cild 4, № 12, 2024).

Qeyd edək ki, “Культурологічний альманах” Ukrayna və xarici alimlərin fəlsəfə, din, tarix, mədəniyyətşünaslıq və arxeologiyanın aktual problemlərinə həsr olunmuş məqalələrini dərc edən resenziyalı nəşrdir.

## ARTICLE BY DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY PROFESSOR PUBLISHED IN "*CULTURAL ALMANAC*"

An article titled "Borden Parker Bowne and American Personalism" by Ruslan Khalilov, lecturer of Khazar University's Department of Political Science and Philosophy has been published in “Cultural Almanac” (Культурологічний альманах) journal (Volume 4, Issue 12, 2024).

It should be noted that "*Cultural Almanac*" is a peer-reviewed publication that publishes articles by Ukrainian and foreign scholars devoted to current problems of philosophy, religion, history, cultural studies, and archaeology.

Link to the article:

*Перегляд БОРДЕН ПАРКЕР БОУН І АМЕРИКАНСЬКИЙ ПЕРСОНАЛІЗМ*

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ "*INFORMATION*" JURNALINDA




## ARTICLE BY ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT INSTRUCTOR PUBLISHED IN "*INFORMATION*"

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Dr. Məhəmməd İmran`ın "Fine-Tuning QurSim on Monolingual and Multilingual Models for Semantic Search" ("Semantik axtarış üçün təkdilli və çoxdilli modellərdə QurSim-in dəqiq tənzimlənməsi") adlı məqaləsi "*Information*" jurnalının 16 (84) nömrəli nəşrində dərc olunub. Bu jurnal Scopus Q2 və Web of Science-ESCI İndeksli jurnaldır. Tədqiqatda autentik tərcümələrdən istifadə edilərək, çoxdilli QurSim məlumat bazası təqdim olunur və nəzərə çatdırılır ki, təkdilli modellər ərəb beyti təsnifatı və axtarış tapşırıqları üçün çoxdilli modellərə nisbətən daha yaxşı fəaliyyət göstərir.

Məqaləyə keçid:

Dr. Muhammad Imran of Khazar University's English Language and Literature Department published an article titled "Fine-Tuning QurSim on Monolingual and Multilingual Models for Semantic Search" in *Information*, 16 (84), a Scopus Q2 and Web of Science-ESCI Indexed journal.

This research introduces a multilingual QurSim dataset using authentic translations and shows that monolingual models outperform multilingual ones for Arabic verse classification and retrieval tasks.

This paper can be read at:

*https://www.mdpi.com/2078-2489/16/2/84*




## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜDİRİNİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*MİLLİ EĞİTİM*" JURNALINDA

## HISTORY AND ARCHAEOLOGY DEPARTMENT HEAD CO-AUTHORS ARTICLE IN "*MILLI EĞITIM*" JOURNAL

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlunun Mərmərə Universitetinin dosenti Mehdi Gəncəli ilə həmmüəllifi olduğu "Bakü'de Bir Osmanlı - Muallim Cevdet'in Neşr-i Maarif Cemiyetindeki Faaliyeti ve Azerbaycan Eğitim Hayatındaki Rolü" (genişləndirilmiş ingiliscə xülasə ilə birlikdə) adlı məqalə Türkiyədə yayımlanan beynəlxalq indeksli "*Milli Eğitim*" dərgisində (2025-ci il, 245-ci sayı) dərc olunmuşdur.

Məqalədə XX əsrin başlanğıcında H.Z.Tağıyevin təşəbbüsü ilə Bakıda ilk pedaqoji kadrlar yetişdirən məktəb kimi açılan Darülmuallimin-i İslam və onun İstanbuldan gətirilən ilk müdürü Muallim Cevdetdən bəhs edilir. Məqalə Azərbaycan və Türkiyə arxivləri əsasında yazılmışdır.

Məqalənin tam mətni bu linkdədir:

An article co-authored by Associate Professor Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, and Associate Professor Mehdi Ganjali from Marmara University, titled "An Ottoman in Baku: Muallim Cevdet's Activities in the Society for the Spread of Education and His Role in Azerbaijan's Educational Life" (with an extended English abstract) has been published in Türkiye's internationally indexed "*Milli Eğitim*" (National Education) journal (Issue 245, 2025). The article discusses the Darülmuallimin-i Islam, which was established in Baku at the beginning of the 20th century as the first teacher training school on the initiative of H.Z. Tagiyev, and its first director, Muallim Cevdet, who was brought from Istanbul. The article is based on research from both Azerbaijani and Turkish archives.

Link to the full article:

*https://dergipark.org.tr/tr/pub/milliegitim/issue/90195/1495128*

## "NATİQLİK SƏNƏTİNİN SİRLƏRİ" MÖVZUSUNDA DƏYİRMİ MASA

Dekabrın 26-da Dillər və ədəbiyyatlar departamentinin müəllimi, Dr. Sevinc Qəmbərovanın moderatorluğu ilə "Natiqlik sənətinin sirləri" mövzusunda dəyirmi masa təşkil edilmişdir. Əvvəlcə Əməkdar jurnalist, Prof. Qulu Məhərrəmlinin Azərbaycan mətbuatındakı, jurnalistikasındakı rolu, elmi-pedaqoji fəaliyyəti, müəllifi olduğu çoxsaylı kitablar, sənədli filmlər və s. barədə danışılmış, yubileyi münasibətilə təbrik edilmişdir. Sonra Prof. Qulu Məhərrəmli nitq mədəniyyəti, diksiya, nitqin məntiqi və texnikası, dil və nitq anlayışları, mütaliə mədəniyyəti və s. barədə ətraflı şəkildə danışmış, tələbələrin suallarını cavablandırmışdır. Hər zaman aktuallığını qoruyan "Natiqlik sənətinin sirləri" mövzusu auditoriyanın böyük marağına səbəb olmuş və müzakirələr aparılmışdır.

Tədbirdə Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova, Dr. Almaz Bədəlova və tələbələr iştirak etmişlər.

## ROUND TABLE ON "SECRETS OF PUBLIC SPEAKING"

On December 26, a round table on "Secrets of Public Speaking" was organized under the moderation of Dr. Sevinj Gambarova, lecturer at the Department of Languages and Literature. Initially, the discussion focused on Honored Journalist Prof. Gulu Maharramli's role in Azerbaijani press and journalism, his scientific-pedagogical activities, numerous books, documentaries, etc., and he was congratulated on his anniversary. Then, Prof. Gulu Maharramli spoke in detail about speech culture, diction, logic and technique of speech, concepts of language and speech, reading culture, etc., and answered students' questions. The topic "Secrets of Public Speaking," which always maintains its relevance, generated great interest from the audience and led to discussions.

The event was attended by Assoc. Prof. Dilbar Zeynalova, Head of the Department of Languages and Literature, Parvin Karimova, Vice Dean of the School of Humanities, Education and Social Sciences, Dr. Almaz Badalova, and students.

## "ELMİ-TƏDQİQATA NECƏ BAŞLAMALI?" MÖVZUSUNDA TƏLİM

Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan I-V kurs tələbələrinin birgə iştirakı ilə Baytarlıq təbabəti departamentinin müəllim və koordinatoru Çiçək Əliyeva tərəfindən "Elmi-tədqiqata neçə başlamalı?" mövzusunda təlim keçirilmişdir. Təhsil və elm vəhdətinin təşkil olunması, tələbələrin elmi araşdırmalardakı rolu və onların bu prosesə cəlb edilməsi üsulları, ümumilikdə isə elmi-tədqiqat işlərinin vacibliyi haqqında məlumatlar verilmişdir. Eyni zamanda elmi-tədqiqat mövzusunun seçilməsi, tədqiqat işinin aktuallığının qiymətləndirilməsi, tədqiqatın aparılma üsulları, nəticələrin təhlili, mövzuya dair xülasə və elmi məqalələrin tərtibatı haqqında tələbələrlə birgə müzakirələr aparılmışdır.

Təlimin əsas məqsədi tələbələrin elmi araşdırmalara olan marağının yüksəldilməsi və tələbə-müəllim əlaqəsini artıraraq müvafiq sahə üzrə müxtəlif tədqiqat işlərinin başlanması olmuşdur.

## TRAINING ON "HOW TO START SCIENTIFIC RESEARCH?"

A training session on "How to Start Scientific Research?" was conducted by Chichek Aliyeva, lecturer and coordinator of the Veterinary Medicine Department, with the joint participation of students from years I-V studying Veterinary Medicine. Information was provided about organizing the unity of education and science, the role of students in scientific research and methods of involving them in this process, and the importance of scientific research work in general. At the same time, discussions were held with students about selecting research topics, evaluating the relevance of research work, research methods, analysis of results, and preparing summaries and scientific articles on the topic.

The main goal of the training was to increase students' interest in scientific research and to initiate various research projects in the relevant field by enhancing student-teacher relationships.

# HASAN KALYONCU UNİVERSİTETİNİN MÜƏLLİMİ "XƏZƏR"DƏ

# HASAN KALYONCU UNIVERSITY LECTURER AT KHAZAR



*İlqarə Abdullayeva, Yakup Durmaz*

Dekabrın 23-27-də Türkiyənin Hasan Kalyoncu Universitetinin müəllimi Dr. Yakup Durmaz ERASMUS+(KA171) mübadilə proqramı çərçivəsində Xəzər Universitetində olmuşdur.

İlkin görüşdə Xəzər Universitetindən Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoları İlqarə Abdullayeva, Jalə Məmmədova və Seyran Əliyeva, İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Xanım Öməroğlu, departamentin tədqiqatçı müəllimi Dr. Məhəmməd Çərkəsov iştirak etmişlər.

Növbəti günlərdə Yakup Durmaz İqtisadiyyat və menecment departamentinin müəllimi Elnur Quliyevin dərslərində iştirak etmiş və özü də müxtəlif mövzularda bir neçə dərs keçmişdir.

Proqramın davamında İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsaeva, Dr. Məhəmməd Çərkəsov, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova qonaqla görüşüblər. Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müidiri Fatimə Vəliyeva, koordinatoru İlqarə Abdullayeva iştirak etmişlər.

Yakup Durmaz İlqarə Abdullayevanın müşayiəti ilə Heydər Əliyev Mərkəzi ilə də tanış olmuşdur.

From December 23-27, Dr. Yakup Durmaz, lecturer from Türkiye's Hasan Kalyoncu University, visited Khazar University within the framework of the ERASMUS+(KA171) exchange program.

The initial meeting was attended by Khazar University's Director of International Relations Office Fatima Valiyeva and coordinators Ilgara Abdullayeva, Jala Mammadova, and Seyran Aliyeva, Vice Dean of the School of Economics and Management Dr. Khanim Omaroglu, and department research lecturer Dr. Mahammad Charkasov. In the following days, Yakup Durmaz attended classes of Economics and Management Department lecturer Elnur Guliyev and also taught several classes on various topics.

During the continuation of the program, Dr. Raziya Isayeva, Dean of the School of Economics and Management, Dr. Mahammad Charkasov, and Director of Quality Assurance Center Lyudmila Sotova met with the guest. The meeting was attended by Director of International Relations Office Fatima Valiyeva and coordinator Ilgara Abdullayeva.

Yakup Durmaz, accompanied by Ilgara Abdullayeva, also visited the Heydar Aliyev Center.

# ŞİMALİ KİPRİN DOĞU AKDENİZ UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# EASTERN MEDITERRANEAN UNIVERSITY DELEGATION FROM NORTH CYPRUS VISITS KHAZAR UNIVERSITY




*Hasan Kılıç, Hamlet İsaxanlı*

Yanvarın 6-da Xəzər Universitetində Şimali Kiprin Doğu Akdeniz Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Doğu Akdeniz Universitetinin rektoru Prof. Dr. Hasan Kılıç, İnstitusional İnkişaf və Beynəlxalq Akademik Əlaqələr şöbəsinin koordinatoru Dos.. Cahit Ezel və Əczaçılıq fakültəsinin dekanı Prof. Dr. Hayrettin Ozan Gülcan, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, prorektorlar, dekanlar və akademik departament rəhbərləri iştirak ediblər.

Görüş zamanı Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva tərəfindən Xəzər Universiteti barədə, Doğu Akdeniz Universitetinin rektoru Prof. Dr. Hasan Kılıç tərəfindən isə Doğu Akdeniz Universiteti haqqında təqdimatlar nümayiş etdirilib. Müzakirələrdə  iki universitet arasında akademik əməkdaşlıq və əlaqələrin inkişafı əsas mövzu olub.

Görüş çərçivəsində qarşılıqlı anlaşma memorandumu imzalanıb. Sonda tərəflər bir-birinə xatirə hədiyyələri təqdim ediblər.

A delegation from Eastern Mediterranean University (EMU) of North Cyprus paid an official visit to Khazar University on January 6, 2025. The high-level meeting brought together EMU's Rector Prof. Dr. Hasan Kilic, Coordinator of Institutional Development and International Academic Relations Assoc. Prof. Cahit Ezel, and Dean of the Faculty of Pharmacy Prof. Dr. Hayrettin Ozan Gulcan. The Khazar University side was represented by Founder and Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, along with vice-rectors, deans, and heads of academic departments. During the meeting, Head of International Relations Office Fatima Valiyeva delivered a comprehensive presentation about Khazar University, while EMU Rector Prof. Dr. Hasan Kilic showcased the achievements and prospects of Eastern Mediterranean University. The discussions primarily focused on developing academic cooperation and strengthening bilateral relations between the two institutions.

The meeting culminated in the signing of a Memorandum of Understanding. The event concluded with an exchange of commemorative gifts between the parties.

# TÜRKİYƏNİN HASVET MEDİCAL GROUP ŞİRKƏTİ İLƏ GÖRÜŞ

Yanvarın 7-də Xəzər Universitetində Türkiyədə baytarlıq sahəsi üzrə fəaliyyət göstərən Hasvet Medical Group Şirkətinin Bakı və Türkiyə üzrə nümayəndələri ilə görüş keçirilmişdir. Görüşdə Hasvet Medical Groupun rəhbər və qurucusu  Hidayet Şimşek, şirkət koordinatoru  Yunus Emre Büyükballı və Hasvet İnternational Animal Hospital Baku-nun direktoru Mehmet Koçak, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və prorektor, dekan və departament müdirləri iştirak etmişlər.

Görüşün əsas məqsədi baytarlıq təbabəti departamentinin fəaliyyət istiqamətlərinin genişləndirilməsi, tədris prosesinin keyfiyyətinin yüksəldilməsi və maddi-texniki bazanın qurulmasına dair birgə müzakirələrin aparılması olmuşdur.

Yanvarın 9-da maddi-texniki baza və klinik fəaliyyətlə tanışlıq məqsədilə şirkətin Bakı şəhərində fəaliyyət göstərən Hasvet İnternational Animal Hospitala ziyarət təşkil edilmişdir.



*Mehmet Koçak, Yunus Emre Büyükballı, Hidayet Şimşek*



*Hamlet İsaxanlı*

# MEETING WITH HASVET MEDICAL GROUP FROM TÜRKIYE

On January 7, Khazar University hosted a meeting with representatives from Hasvet Medical Group, a leading veterinary company operating in Türkiye, with delegates from both Baku and Türkiye operations. The meeting was attended by Hidayet Simsek, CEO and founder of Hasvet Medical Group, Yunus Emre Buyukballi, company coordinator, and Mehmet Kocak, director of Hasvet International Animal Hospital Baku, alongside Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, as well as vice-rectors, deans, and department heads.

The primary focus of the meeting was to discuss the expansion of the veterinary medicine department's scope of activities, enhancement of educational quality, and development of material and technical infrastructure.

On January 9, a site visit was organized to Hasvet International Animal Hospital in Baku to explore their facilities and clinical operations.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ *TÜRKLAD* DƏRGİSİNDƏ

Dillər və ədəbiyyatlar departamentinin müəllimi, Dr. Sevinc Qəmbərovanın “Azərbaycan dili şivələrində əlamət bildirən sözlər” adlı məqaləsi Türkiyənin “Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (*Türklad*)” dərgisində çap olunmuşdur (2024, cild 8, sayı 2). Dərgi İnternational İndex Copernicus, Google Scholar və s. beynəlxalq xülasələndirmə bazalarında indekslənir.

## ARTICLE BY AN INSTRUCTOR FROM LANGUAGES AND LITERATURES DEPARTMENT PUBLISHED IN *TURKLAD* JOURNAL

An article titled "Words Denoting Attributes in Azerbaijani Language Dialects" by Dr. Sevinj Gambarova, instructor at the Department of Languages and Literatures, has been published in Türkiye’s "International Journal of Turkic Dialect Research (*Turklad*)" (2024, volume 8, issue 2). The journal is indexed in International Index Copernicus, Google Scholar, and other international abstracting databases.

*https://dergipark.org.tr/tr/pub/turklad/issue/88677/1519654*

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ "*İNFORMATİON*" JURNALINDA

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmranın birinci və məsul müəllif olduğu titled “Classification of English Words into Grammatical Notations Using Deep Learning Technique" ("Dərindən öyrənmə texnikası ilə ingilisdilli sözlərin qrammatik notasiyalara təsnifatı") adlı məqaləsi "*Information*" jurnalının 15-ci cildinin 12-ci nömrəsində (Scopus Q2 və Web of Science-ESCI indeksli jurnal) dərc olunub.

Bu məqalə süni intellekt əsaslı CNN modellərinin ingilis dilini öyrənənlərə (ingilis dili ana dili olmayanlar) sözləri yüksək dəqiqliklə qrammatik kateqoriyalara təsnif etməkdə necə kömək etdiyini və dilin öyrənilməsini necə təkmilləşdirdiyini araşdırır.

Məqaləyə keçid:

## ARTICLE BY AN EMPLOYEE FROM ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT PUBLISHED IN “*INFORMATION*” JOURNAL

Dr. Muhammad Imran of Khazar University's English Language and Literature Department, as the first and corresponding author, has published an article titled “Classification of English Words into Grammatical Notations Using Deep Learning Technique" in *Information*, 15 (12), a Scopus Q2 and Web of Science-ESCI Indexed journal.

This paper examines how AI-powered CNN models help non-native English learners classify words into grammatical categories with high accuracy, improving language learning.

This paper can be read at:

*https://doi.org/10.3390/info15120801*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*COMMONSPACE.EU*"-DA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Opinion: What Aliyev's reaction to the airplane crash tells us about Azerbaijan's relations with the West" ("Əliyevin təyyarə qəzasına reaksiyası Azərbaycanın Qərblə münasibətlərindən xəbər verir") mövzusunda məqaləsi "*Commonspace.eu*"da dərc edilmişdir. Məqaləyə keçid: Opinion: What Aliyev's reaction to the airplane crash tells us about Azerbaijan's relations with the West | commonspace.eu

## ARTICLE BY A LECTURER FROM THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *COMMONSPACE.EU*

An article by Dr. Vasif Huseynov, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Opinion: What Aliyev's reaction to the airplane crash tells us about Azerbaijan's relations with the West", has been published in "*Commonspace.eu*".

Link to the article: Opinion: What Aliyev's reaction to the airplane crash tells us about Azerbaijan's relations with the West | commonspace.eu

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*КУЛЬТУРОЛОГІЧНИЙ АЛЬМАНАХ*"DA

Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Ruslan Xəlilovun "Borden Parker Bowne and American Personalism" ("Borden Parker Bowne və Amerika personalizmi") adlı məqaləsi "*Культурологічний альманах*"da dərc edilmişdir (Cild 4, № 12, 2024).

Qeyd edək ki, "*Культурологічний альманах*" Ukrayna və xarici alimlərin fəlsəfə, din, tarix, mədəniyyətşünaslıq və arxeologiyanın aktual problemlərinə həsr olunmuş məqalələrini dərc edən resenziyalı nəşrdir.

Məqaləyə keçid: *Перегляд БОРДЕН ПАРКЕР БОУН І АМЕРИКАНСЬКИЙ ПЕРСОНАЛІЗМ*

## ARTICLE BY A PROFESSOR FROM DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY PUBLISHED IN "*CULTURAL ALMANAC*"

An article titled "Borden Parker Bowne and American Personalism" by Ruslan Khalilov, lecturer of Khazar University's Department of Political Science and Philosophy has been published in "*Cultural Almanac*" (Культурологічний альманах) journal (Volume 4, Issue 12, 2024).

It should be noted that "*Cultural Almanac*" is a peer-reviewed publication that publishes articles by Ukrainian and foreign scholars devoted to current problems of philosophy, religion, history, cultural studies, and archaeology.

Link to the article: *Перегляд БОРДЕН ПАРКЕР БОУН І АМЕРИКАНСЬКИЙ ПЕРСОНАЛІЗМ*

## MƏRAKEŞİN İBN TOFAİL UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

## REPRESENTATIVE FROM IBN TOFAIL UNIVERSITY OF MOROCCO AT KHAZAR



*Hassan El Bari, Məhəmməd Nuriyev*

Dekabrın 25-də Xəzər Universiteti Mərakeşin İbn Tofail Universitetinin nümayəndəsi Prof. Hassan El Bari`ni qəbul edib.

Qəbul Xəzər Universitetinin Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, Mühəndislik Biomateriallar Tədqiqat Mərkəzinin direktoru Soodabeh Davaran, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatartar, Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarova, Həyat elmləri departamentinin tədqiqatçısı Cavid Ocaqi, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Seyran Əliyevanın iştirakı ilə keçib.

Materialşünaslıq üzrə fəlsəfə doktoru, Prof. Hassan El Bari İbn Tofail Universitetinin fəaliyyət istiqamətləri, eləcə də tullantıların idarə edilməsi və bərpası ilə bağlı çıxış etmişdir. Fatimə Vəliyeva Xəzər Universiteti haqqında ətraflı məlumat verib.

Görüşdə Mərakeşin İbn Tofail Universiteti ilə Xəzər Universiteti arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi müzakirə olunmuş, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılmışdır

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.

On December 25, Khazar University hosted Prof. Hassan El Bari, a representative from Ibn Tofail University of Morocco.

The reception was attended by Prof. Muhammad Nuriyev, Vice-Rector for Academic Affairs at Khazar University, Soodabeh Davaran, Director of the Engineering Biomaterials Research Center, Farida Tatartar, Head of Physics and Electronics Department, Jamala Eldarova, Head of Life Sciences Department, Javid Ochagi, Researcher at Life Sciences Department, Fatima Valiyeva, Head of International Relations Department, and coordinator Seyran Aliyeva.

Prof. Hassan El Bari, Ph.D. in Materials Science, gave a presentation about the activities of Ibn Tofail University, as well as waste management and recovery. Fatima Valiyeva provided detailed information about Khazar University.

During the meeting, partnership and strengthening relations between Ibn Tofail University of Morocco and Khazar University were discussed, and views were exchanged about next steps.

At the end of the meeting, gifts were presented and commemorative photos were taken.

## DR. MUHAMMAD İMRAN İORDANİYANIN YƏRMUK UNİVERSİTETİNDƏ XƏZƏR UNİVERSİTETİNİ TƏMSİL EDİB

## DR. MUHAMMAD IMRAN REPRESENTS KHAZAR UNIVERSITY AT YARMOUK UNIVERSITY, JORDAN

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamenti bildirir ki, universitetin adyunkt professoru Dr. Muhammad İmran dekabrın 30-da İordaniyanın Yərmuk Universitetinin İncəsənət fakültəsində məruzə edib.

Dr. İmran süni intellektin (Sİ) ingilis dilinin tədrisində və öyrənilməsində ən son nailiyyətlərini, eləcə də tətbiq edilməsini vurğulayıb, Xəzər Universitetində aparılan tədqiqat layihələri haqqında məlumat verib. Onun təqdimatı auditoriya tərəfindən maraqla qarşılanıb.

Dr. İmran Yərmuk Universitetinin vitse-prezidenti, İncəsənət fakültəsinin dekanı və İngilis dili və ədəbiyyatı departamentinin rəhbəri ilə səmərəli müzakirələr aparıb. Bu görüşlərdə akademik əlaqələrin gücləndirilməsi və gələcək əməkdaşlıq imkanlarının araşdırılması müzakirə olunub. Dr. İmran Yərmuk Universitetini 2025-ci ilin may ayında Xəzər Universitetinin Çinin Şanxay Beynəlxalq Araşdırmalar Universiteti ilə birgə ev sahibliyi edəcəyi Dil, Ədəbiyyat və Dilçilik Fəlsəfəsi üzrə 5-ci Beynəlxalq Konfransda (ICPL) iştiraka dəvət edib.

The Department of English Language and Literature at Khazar University announces that Dr. Muhammad Imran, Adjunct Professor, delivered a seminar at the Faculty of Arts, Yarmouk University, Jordan, on December 30.

During his address, Dr. Imran highlighted the latest advancements in Artificial Intelligence (AI) and its applications in English language teaching and learning, sharing ongoing research projects at Khazar University. His presentation was met with great interest from the academic audience.

In addition to the seminar, Dr. Imran held productive discussions with the Vice President of Yarmouk University, the Dean of the Faculty of Arts, and the Head of the Department of English Language and Literature. These meetings focused on strengthening academic ties and exploring future collaborations. Dr. Imran extended a formal invitation to Yarmouk University to participate in the upcoming 5th International Conference on the Philosophy of Language, Literature, and Linguistics (ICPL), which Khazar University will host in collaboration with Shanghai International Studies University, China, in May 2025.

## ŞƏHİDİN XANIMI MƏZUN OLDU

Şəhid Ataməli Musaoğlunun xanımı Firuzə Ziyad qızı Musaoğlu həyat yoldaşının yolunu davam etdirərək bu il Xəzər Universitəsinin Klinik Psixologiya ixtisası üzrə Magistr pilləsini tam müvəffəqiyyətlə başa vuraraq Fərqlənmə Diplomuna layiq görülmüşdür.

Vətən müharibəsi başlayanda Ataməli Musaoğlu Xəzər Universitetinin ikinci kurs magistr tələbəsi idi. O, könüllü olaraq cəbhəyə yollanmış, qəhrəmancasına şəhid olmuşdu.

2025-ci il yanvarın 8-də Xəzər Universitəsinin təsisçisi, Direktorlar Və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının tapşırığı ilə Fərqlənmə diplomu  gül dəstəsi ilə birlikdə) Şəhidin evində ailəsinə şəxsən təqdim edildi.

Şəhid Ataməli Musaoğlunun anası Leyla Musayeva Hamlet İsaxanlıya, Xəzər Universitəsinin rəhbərliyinə və universitənin bütün kollektivinə dərin təşəkkürünü bildirdi.

## MARTYR'S WIFE GRADUATES

Firuza Ziyad Musaoglu, wife of martyred soldier Atamali Musaoglu, has completed her Master's degree in Clinical Psychology at Khazar University with distinction, following in her husband's academic footsteps.

Atamali Musaoglu was a second-year master's student at Khazar University when the Patriotic War began. He voluntarily joined the frontlines where he later achieved martyrdom in service to his country.

On January 8, following the directive of Prof. Acad. Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, the Honors diploma was personally delivered to the martyr's family residence, accompanied by a bouquet of flowers.

Leyla Musayeva, mother of martyred Atamali Musaoglu, expressed her profound gratitude to Hamlet Isakhanli, the university administration, and the entire staff of Khazar University for their support.

## TƏLƏBƏLƏR MƏRKƏZİ NƏBATAT BAĞINDA

Xəzər Universitetinin Kimya-biologiya və Biologiya müəllimliyi ixtisaslarının II kurs tələbələri Həyat elmləri departamentinin müəllimi G. Şəfiyevanın rəhbərliyi ilə Mərkəzi Nəbatat Bağında ekskursiyada oldular. Ekskursiya tələbələrə təbiət elmləri sahəsində yeni biliklər qazandırmaq məqsədilə təşkil edilmişdi.

Mərkəzi Nəbatat Bağının elmi işçisi Asif Mehralıyev tələbələrə həm yerli, həm də dünyanın müxtəlif ölkələrindən gətirilərək, introduksiya olunmuş bitkilər haqqında, onların müxtəlif ekoloji mühit şəraitlərinə necə uyğunlaşdığı və adaptasiya prosesləri barədə məlumat verdi.

Ekskursiyanın sonunda bağ əməkdaşları tələbələrə təhsil prosesində istifadə edə biləcəkləri faydalı kitablar təqdim ediblər.

## STUDENTS VISIT CENTRAL BOTANICAL GARDEN

Second-year students from Khazar University's Chemistry-Biology and Biology Teaching programs visited the Central Botanical Garden under the guidance of Life Sciences Department instructor G. Shafiyeva. The excursion was organized to provide students with new knowledge in the field of natural sciences.

Asif Mehraliyev, a research scientist at the Central Botanical Garden, informed students about both local and introduced plants from various countries around the world, explaining how they adapt to different ecological environments and their adaptation processes.

At the end of the excursion, garden staff presented students with useful books that they can use in their educational process.





*Hafiz Muhammad Azeem Akram*

# ERASMUS+ DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNSTİTUSİONAL REPOZİTORİYANIN TƏQDİMATI

# PRESENTATION OF INSTITUTIONAL REPOSITORY WITHIN ERASMUS+ DIRNA PROJECT

Yanvarın 10-da Erasmus+DIRNA layihəsi çərçivəsində 8 tərəfdaş Azərbaycan universitetlərinin tədqiqat materiallarının toplanacağı İnstitusional repozitoriyanın təqdimatı oldu.




Təqdimatda repozitoriyanın strukturu, metadataların daxil edilməsi, özü arxivləşdirmə (self -archiving), statistik məlumatların funksiyaları Xəzər Universitetinin akademik heyətinə nümayiş olundu. Həmçinin, akademik heyətə özü arxivləşdirmə xidmətində şəxsi səhifənin yaradılması, tədqiqatçının şəxsi səhifəsində tədqiqat materiallarını yerləşdirilməsi praktik məşğələ şəklində izah edildi.

Təqdimat Xəzər Universitetinin kompüter elmləri departamentinin müəllimi Dr. Hafiz Muhammad Azeem Akram tərəfindən keçirildi.

On January 10, an Institutional Repository was presented within the framework of the Erasmus+DIRNA project, which will collect research materials from 8 partner Azerbaijani universities.

During the presentation, the repository's structure, metadata entry, self-archiving capabilities, and statistical functions were demonstrated to the academic staff of Khazar University. Additionally, the academic staff received practical training on creating personal pages in the self-archiving service and uploading research materials to researcher's personal pages.

The presentation was conducted by Dr. Hafiz Muhammad Azeem Akram, lecturer at the Computer Science Department of Khazar University.

# XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ETDİYİ LİTVA FİLMİ "*EMİLİYA: AZADLIQ CARÇISI*" NÜMAYİŞ OLUNUB

# LITHUANIAN FILM "*EMILIA*" *TRANSLATED* INTO AZERBAIJANI BY KHAZAR UNIVERSITY STUDENTS PREMIERES

Yanvarın 13-də Landmark iş mərkəzinin "Cine club" kino zalında "*Emiliya: azadlıq carçısı*" adlı filmin nümayişi baş tutub. Film Sovet repressiyalarına məruz qalmış Litvada azadlıq uğrunda mübarizədən bəhs edən dramdır. Filmin baş qəhrəmanı Emiliya, 1972-ci ilin yazında gənclər Litva üçün azadlıq tələb etmək məqsədilə Kaunas küçələrinə axışarkən, etiraz edən kütlə ilə birlikdə arzuladığı həyata doğru yürüş edir.

The screening of the film "Emilia" took place on January 13, at the "Cine Club" hall of Landmark Business Center. The film is a drama depicting the struggle for freedom in Lithuania during Soviet repressions. The protagonist *Emilia* marches with protesting crowds toward her desired life in spring 1972, as young people flood the streets of Kaunas demanding freedom for Lithuania.



*Adilə Abbasova, Gülçin İbrahimova, Milana Abbasova, Kestutis Vaşkeleviçus, Elmira Cahangirli, Viktoras Dagilis (Litva səfirinin müşaviri), Xavər Kekalova, Aysel Əhmədova, Əli Qarazadə*

Film Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin, eləcə də həmin departamentin müəllimi Elmira Cahangirlinin rəhbərliyi ilə tərcümə ixtisasında təhsil alan 4-cü kurs tələbələri Xavər Kekalova, Gülçin İbrahimova, Əli Qarazadə və Aysel Əhmədova, eləcə də ingilis dili müəllimliyi ixtisasının 2-ci kurs tələbəsi Adilə Abbasova tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.

Filmin nümayişinə başlamazdan öncə Litvanın Azərbaycandakı səfiri Kestutis Vaşkeleviçus göstərdiyi dəstəyə görə universitetin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasovaya dərin minnətdarlığını bildirib. Sonra filmin Azərbaycan dilinə tərcüməsinə və subtitrlərdə əks olunmasına köməklik göstərən Xəzər Universiteti tələbələrinin mükafatlandırma mərasimi keçirilib.

The film was translated into Azerbaijani by fourth-year translation students Khaver Kekalova, Gulchin Ibrahimova, Ali Garazade, and Aysel Ahmadova, along with second-year English language teaching student Adila Abbasova from Khazar University's Department of English Language and Literature, under the guidance of department instructor Elmira Jahangirli.

Before the screening, Lithuanian Ambassador to Azerbaijan Kestutis Vaskelevičius expressed his profound gratitude to Milana Abbasova, Head of the Department of English Language and Literature at the University, for her support. Following this, an award ceremony was held for the Khazar University students who contributed to the film's translation and subtitling into Azerbaijani.

# QANLI YANVARIN 35 İLLİYİ İLƏ BAĞLI ANIM TƏDBİRİ

# COMMEMORATION CEREMONY FOR THE 35TH ANNIVERSARY OF BLACK JANUARY






Telman Nüsrətoğlu

Yanvarın 16-da Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı, müəllim və tələbələrin iştirakı ilə 20 yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirildi. 20 Yanvarla bağlı videoçarx nümayiş olundu.

Tədbirdə Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu, departamentin müəllimi Dr. Söhrab Mustafayev və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli çıxış etdilər. Çıxışlarda Sovet imperiyasının Azərbaycana qarşı törətdiyi misli görünməyən vəhşilik, 20 yanvar hadisələrinin mahiyyəti, xalqın milli müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə ruhu, Moskvanın bütün təzyiqlərinin, qorxu yaratmaq cəhdlərinin milli birlik və həmrəyliklə dəf edildiyi qeyd olundu.

A commemoration ceremony dedicated to the 35th anniversary of the January 20 events was held at Khazar University on January 16, 2025, organized by the Department of History and Archaeology with the participation of faculty members and students. A video presentation about January 20 was shown at the event.

Associate Professor Telman Nusratoglu, Head of the Department of History and Archaeology, Dr. Sohrab Mustafayev, faculty member of the department, and Alovsat Amirbayli, Director of Public Relations and Media, delivered speeches at the ceremony. The speakers emphasized the unprecedented atrocities committed by the Soviet empire against Azerbaijan, the significance of the January 20 events, the spirit of national struggle for independence and territorial integrity, and how national unity and solidarity overcame Moscow's pressures and attempts to instill fear.



# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ STEM ANALİTİK MƏRKƏZİNDƏ

# HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY AT THE STEM ANALYTICAL CENTER

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2025-ci il yanvarın 20-də STEM Analitik Mərkəzində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı keçmiş səfiri, tanınmış diplomat Cavanşir Axundovla görüşdə iştirak etmişdir. Tədbir 20 Yanvar faciəsi qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Tədbirdə regional və qlobal miqyasda bir sıra mövzular müzakirə edilmiş, xüsusilə İran-Azərbaycan münasibətləri, İrandakı daxili siyasi proseslər, yeni Tramp administrasiyasının siyasəti kontekstində Qərbin Tehranla yaşadığı böhran barədə danışılmış, həmçinin Yaxın Şərqdəki geosiyasi və geoiqtisadi qarşıdurmaların gərginləşməsi kontekstində Cənubi Qafqazdakı çağırışlar və risklər barədə müzakirələr aparılmışdır.

Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, participated in a meeting with the former Ambassador of Azerbaijan to Iran, a famous diplomat, orientalist Javanshir Akhundov at the STEM Analytical Center on January 20. The event began with a minute of silence in memory of the victims of the January 20 tragedy.

At the event, a wide range of topics were discussed on both regional and global scales, particularly Iran-Azerbaijan relations, internal political processes in Iran, the crisis between the West and Tehran in the context of the policy of the new Trump administration, as well as the challenges and risks in the South Caucasus amid the escalation of geopolitical and geo-economic tensions in the Middle East.

*Link:https://stem-lab.az/article/vstrecha-s-eksposlom-azerbaidzhana-v-irane-dzhavanshirom-axundovym-1137*



# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMLƏRİ ELMİ SEMİNARDA
# HISTORY AND ARCHAEOLOGY DEPARTMENT FACULTY ATTEND ACADEMIC SEMINAR



*Ramin Fətullayev, Yaqub Məmmədov, Ceyran Məmmədova, Maria Christina Carile, Nurlan Nəsirov, Luca Colliva*

Yanvarın 22-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov, Dr. Nurlan Nəsirov, Dr. Ramin Fətullayev və Ceyran Məmmədova ADA Universitetində "Maddi və qeyri-maddi irs: nəzəriyyə, üsullar və tətbiqlər" mövzusunda keçirlən elmi seminarda iştirak etmişlər.

Seminarda İtaliyanın Bolonya Universitetinin əməkdaşları Dr. Roberta Priore, Dr. Maria Cristina Carile və Dr. Luca Colliva maddi və qeyri-maddi irsin qorunması, tədqiqi və bərpası istiqamətində məruzələri təqdim olunub. Sonra mövzu ətrafında fikir mübadiləsi aparılmışdır.

On January 22, faculty members from Khazar University's History and Archaeology Department - Dr. Yagub Mammadov, Dr. Nurlan Nasirov, Dr. Ramin Fatullayev, and Jeyran Mammadova - participated in an academic seminar on "Tangible and Intangible Heritage: Theory, Methods, and Applications" held at ADA University.

During the seminar, researchers from the University of Bologna, Italy - Dr. Roberta Priore, Dr. Maria Cristina Carile, and Dr. Luca Colliva - presented their research on the preservation, study, and restoration of tangible and intangible heritage. The presentations were followed by an exchange of ideas on the topic.

# "MÜƏLLİMLƏRİN PEŞƏKAR İNKİŞAFI" MÖVZUSUNDA SEMİNAR
# SEMINAR ON "TEACHER PROFESSIONAL DEVELOPMENT"

Yanvarın 21-22-də İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə "Müəllimlərin peşəkar inkişafı" ("Teacher Professional Development") mövzusunda Michael Collins`in təqdimatında seminar keçirildi. Seminarın birinci günü sinfin idarə olunması, differensiasiya və sinifdaxili dialoqun qurulması kimi mühüm mövzulara toxunuldu. Növbəti gün isə doğru rəyin bildirilməsi, lüğətin öyrədilməsinin təcrübədə tətbiqi və əlavə tədris materialları ilə təmin olunma kimi vacib məsələlər müzakirə olundu. Müəllimlər ingilis dilinin tədrisi sahəsində qarşılaşdıqları problemlərlə bağlı fikir mübadiləsi apardılar. 30 nəfərə yaxın müəllimin qatıldığı seminar xüsusi maraqla qarşılandı. Təlimin hər iki günündə iştirak edən müəllimlərə ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən təsdiqlənmiş sertifikatlar təqdim olundu.

On January 21-22, the Department of English Language and Literature organized a seminar on "Teacher Professional Development" presented by Michael Collins. The first day of the seminar addressed crucial topics such as classroom management, differentiation, and establishing classroom dialogue. The following day focused on important issues including providing proper feedback, practical application of vocabulary teaching, and supplementary teaching materials.

Teachers exchanged views on challenges they face in teaching English. The seminar, which was attended by nearly 30 teachers, was met with particular interest.

Teachers who participated in both days of the training received certificates endorsed by the U.S. Embassy in Azerbaijan.

# XƏZƏR UNİVERSİTETİNDƏ ERASMUS+ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ SEÇİLMİŞ TƏLƏBƏLƏR ÜÇÜN SƏFƏRQABAĞI MƏLUMATLANDIRMA SESSİYASI

# PRE-DEPARTURE ORIENTATION SESSION FOR ERASMUS+ EXCHANGE STUDENTS AT KHAZAR UNIVERSITY



*İsaxan İsaxanlı*



*Zümrüd Səttar-zadə, Emilya İbrahimli, Aygün Muradova*

Yanvarın 22-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi Erasmus+ proqramı çərçivəsində mübadilə proqramına seçilmiş tələbələr - Zümrüd Səttar-zadə, Emilya İbrahimli, Aygün Muradova, Kəmalə Məşədiyeva, Günay Sadıqova, Nihat Məmmədli, Məryəm İmanquliyeva, İsmayıl Axundov, Günel Allahverdiyeva, Məhəmməd Nuriyev və səfərqabağı məlumatlandırma sessiyası keçirmişdir. Tədbirdə İspaniya (University of Alicante), Polşa (Powislanski və Kozminski uni-

On January 22, the International Relations Office of Khazar University held a pre-departure orientation session for students selected for the Erasmus+ exchange program - Zumrud Sattarzade, Emilya Ibrahimli, Aygun Muradova, Kamala Meshediyeva, Gunay Sadigova, Nihat Memmedli, Meryem Imanquliyeva, Ismayil Akhundov, Gunel Allahverdiyeva, Mehemmed Nuriyev. The event was attended by 10 undergraduate students who will continue their studies under the Erasmus+



*Kəmalə Məşədiyeva, Günay Sadıqova, Nihat Məmmədli*



*Məryəm İmanquliyeva, İsmayıl Axundov, Günel Allahverdiyeva*

versitetləri), Portuqaliya (Polytechnic Institute of Bragança) və Türkiyədən (Hasan Kalyoncu və Yozqat Bozok universitetləri) olan partnyor universitetlərdə Erasmus+ mübadilə proqramı çərçivəsində təhsilini bakalavr pilləsi üzrə davam etdirəcək tələbələr iştirak etmişdir.

Tədbir tələbələrin mübadilə proqramı barədə fikirlərini öyrənmək, onları yeni tədris mühitinə və yeni mədəniyyətlərə uyğunlaşma mövzularında məlumatlandırmaq məqsədi daşıyırdı.

Görüşdə universitetin Tədris işlər üzrə prorektoru Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin dekanı Razyə İsayeva, Təbiət elmləri və mühəndislik fakültəsinin tələbə işləri üzrə dekan müavini Vəfa Aslanova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Seyran Əliyeva iştirak ediblər. Onlar tələbələri mübadilə proqramına seçilmələri münasibətilə təbrik etdilər və tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzuladılar. Görüş xatirə şəkillərinin çəkilməsi və tələbələrə hədiyyələrin təqdim edilməsi ilə yekunlaşdı.

exchange program at partner universities in Spain (University of Alicante), Poland (Powislanski and Kozminski universities), Portugal (Polytechnic Institute of Bragança), and Türkiye (Gaziantep Kalyoncu and Yozgat Bozok universities).

The event aimed to gather students' thoughts about the exchange program and inform them about the steps to be taken before, during, and after the program, academic expectations, and cultural adaptation.



*Seyran Əliyeva*

At the beginning of the event, university administration and academic department heads congratulated the students on their selection for the exchange program and wished them success in their future academic endeavors. Fatima Valiyeva, Head of the International Relations Office, emphasized that the academic and personal development opportunities students will gain during their studies abroad are invaluable, provided comprehensive information, and offered recommendations.

The meeting concluded with a photo session and the presentation of gifts to the students.

## SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ İLƏ BAĞLI VEBİNAR

Yanvarın 22-də Xəzər Universitetinin koordinatoru olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Erasmus+ KA2 proqramının "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi Vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) adlı layihəsi çərçivəsində "Təhsildə və araşdırmada süni intellekt" adlı vebinar keçirildi.

Vebinar İzmir Yüksek Texnologiya İnstitutunun Kitabxana direktoru Gültekin Gürdal tərəfindən təqdim olundu. Vebinarda Xəzər Universiteti ilə yanaşı DIRNA layihəsinin tərəfdaşı olan Azərbaycan ali təhsil müəssisələrinin (Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti) nümayəndələri iştirak etdi.

Vebinarda süni intellekt, məqsədi, üstünlükləri, təhsildə istifadə olunan süni zəka vasitələrinin seçilməsi, dövrün tələbinə uyğun olaraq tədqiqatçıların məqalə yazan zaman istifadə edə biləcəyi alətlərdən bəhs olundu.

Süni intellektin yaratdığı yeni şəraitə uyğun bacarıq və təcrübənin inkişaf etdirilməsinin önəmli olduğu vurğulandı.

## WEBINAR ON ARTIFICIAL INTELLIGENCE UTILIZATION

On January 22, a webinar titled "Artificial Intelligence in Education and Research" was conducted under the Erasmus+ KA2 program's "Research Capacity Development through Institutional Repositories Network in Azerbaijan" (DIRNA) project, which is coordinated by Khazar University and funded by the European Commission.

The webinar was presented by Gültekin Gürdal, Library Director of İzmir Institute of Technology, and featured representatives from Khazar University and partner institutions participating in the DIRNA project, including Baku State University, Azerbaijan Technical University, Customs Committee Academy, Ganja State University, Nakhchivan State University, Mingachevir State University, and Lankaran State University.

The session comprehensively explored artificial intelligence, addressing its purpose, advantages, and strategic selection of AI tools for educational contexts. Particular emphasis was placed on emerging research tools that contemporary researchers can leverage when composing academic articles.

It was underlined how crucial it is to acquire knowledge and expertise relevant to the novel circumstances brought about by artificial intelligence.

## İSTANBUL AYDIN UNİVERSİTETİNİN MÜƏLLİMİ "XƏZƏR"DƏ

## ISTANBUL AYDIN UNIVERSITY LECTURER AT "KHAZAR"

Yanvarın 20-24-də Türkiyənin İstanbul Aydın Universitetinin müəllimi və dekan köməkçisi Dos. Dr. Gökçen Çatlı ERASMUS+ (KA171) mübadilə proqramı çərçivəsində Xəzər Universitetində olmuşdur.

From January 20-24, Assoc. Prof. Dr. Gökçen Çatlı, a faculty member and dean's assistant from Istanbul Aydin University in Türkiye, visited Khazar University as part of the ERASMUS+ (KA171) exchange program.




*Gökçen Çatlı, Telman Nüsrətoğlu*

İlkin görüşdə Xəzər Universitetindən Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu, həmin departamentin müəllimləri Dr. Söhrab Mustafayev, Orxan Zamanov, Dr.Nurlan Nəsirov, Dr.Ramin Fətullayev və Ceyran Məmmədova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru İlqarə Abdullayeva, Keyfiyyətin Təminatı Mərkəzinin koordinatoru Kəmalə Mustafayeva iştirak etmişlər.

Növbəti günlərdə Dos. Dr. Gökçen Çatlı Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu ilə görüşmüş, iki universitet arasında ortaq layihələrin qurulması və əlaqələrin gücləndirilməsi ilə bağlı müzakirə aparmışlar. Proqramın davamında Gökçen Çatlı İlqarə Abdullayevanın müşayiəti ilə "Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna səyahət etmişdir.

Mübadilə proqramının sonunda Dos. Dr. Gökçen Çatlı`ya müvafiq sertifkat təqdim olunmuşdur.

During the initial meeting, key university representatives were present, including Assoc. Prof. Telman Nusretoglu, Head of the Department of History and Archaeology, along with department faculty members Dr. Sohrab Mustafayev, Orhan Zamanov, Dr. Nurlan Nasirov, Dr. Ramin Fatullayev, and Jeyran Mammadova. The meeting also included Fatima Valiyeva, Director of International Relations, Ilgara Abdullayeva, Coordinator of International Relations, and Kamala Mustafayeva, Coordinator of the Quality Assurance Center.

In subsequent days, Dr. Çatlı met with Department Head Telman Nusretoglu to discuss potential collaborative projects and strengthening inter-university relations. As part of the program, she visited the Yanar Dag State Historical, Cultural, and Natural Reserve and the Ateshgah Temple State Historical and Architectural Reserve, accompanied by Ilgara Abdullayeva.

At the conclusion of the exchange program, Dr. Çatlı was presented with a corresponding certificate, marking the successful completion of her academic visit.

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "İNSTİTUSİONAL REPOZİTORİYANIN İCRA PLANI" MÖVZUSUNDA VEBİNAR

## WEBINAR ON "INSTITUTIONAL REPOSITORY IMPLEMENTATION PLAN" WITHIN DIRNA PROJECT

Yanvarın 24-də Xəzər Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Erasmus+ KA2 proqramının "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi Vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) adlı layihəsi çərçivəsində 5-ci iş paketinə uyğun "İnstitusional Repozitoriyanın icra planı" adlı vebinar keçirildi.

Vebinar İzmir Yüksek Texnologiya İnstitutunun Kitabxana direktoru Gültekin Gürdal tərəfindən təqdim edildi.

Vebinarda DIRNA layihəsi çərçivəsində qurulacaq vahid İnstitusional Repozitoriyanın strukturu, tərəfdaş universitetlərin bu vahid sistemdə yer alması və hər bir universitetdən işləri icra edəcək məsul şəxslərin təyin olunması, repozitoriyanın digər tədqiqat sistemləri ilə qarşılıqlı əlaqəsi məsələləri müzakirə olundu.

Nəticə olaraq belə qənaətə gəlindi ki, DIRNA layihəsinin davamlılığı üçün güclü bir texniki infrastruktur və insan resurslarının inkişaf etdirilməsi, milli və beynəlxalq əməkdaşlıqların artırılması, tədqiqat nəticələrinin daha əlçatan və davamlılığı üçün strateji plan hazırlanmalıdır.

On January 24, within the framework of the Erasmus+ KA2 program project "Development of Research Potential through Institutional Repositories Network in Azerbaijan" (DIRNA), which Khazar University coordinates and is funded by the European Commission, a webinar titled "Institutional Repository Implementation Plan" was conducted in alignment with the fifth work package.

The webinar was presented by Gültekin Gürdal, Library Director of İzmir Institute of Technology.

During the webinar, discussions focused on the structure of the unified Institutional Repository to be established under the DIRNA project, the integration of partner universities into this single system, the designation of responsible personnel from each university to execute the work, and the potential interoperability of the repository with other research systems.

As a result, it was concluded that for the sustainability of the DIRNA project, a strategic plan should be developed to develop a robust technical infrastructure and human resources, increase national and international collaborations, and enhance the accessibility and sustainability of research outcomes.

## "2025-Cİ İL VERGİ MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİKLƏR" MÖVZUSUNDA SEMİNAR

Yanvarın 25-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamenti və İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin (İATM) birgə təşkilatçılığı ilə "2025-ci il Vergi Məcəlləsində Dəyişikliklər" mövzusunda seminar keçirildi. Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində keçirilən tədbirdə mühasiblər, maliyyə mütəxəssisləri və sahib-

## A SEMINAR ON "TAX CODE AMENDMENTS 2025"

On January 25, Khazar University's Department of Economics and Management, in collaboration with the Economic Research and Training Center, successfully organized a seminar on "Tax Code Amendments 2025". The event, held at Fikrat Amirov Conference and Concert Center, attracted significant interest from accountants, financial



Radil Fətullayev



karlar iştirak edirdilər.

Seminarın moderatoru İATM prezidenti Radil Fətullayev idi. Tədbirdə AEM Elektron şirkətinin baş mühasibi Asif Zeynalov, Green City Şirkətlər Qrupunun maliyyə müdiri Kamran Məmmədov və İATM MMC-də PMS 2 üzrə təlimçi Nərmin Qurbanəliyeva spiker qismində çıxış etdilər.

Spikerlər vergi qanunvericiliyində edilən son dəyişikliklər, onların sahibkarlıq və fiziki şəxslərə təsiri, eləcə də yeni vergi tələblərinin tətbiqi yolları barədə ətraflı məlumat verdilər. Tədbir iştirakçılarının sualları cavablandırıldı və vergi sahəsindəki yeniliklər ətrafında müzakirələr aparıldı.




Nərmin Qurbanəliyeva

experts, and entrepreneurs.

The seminar was moderated by Radil Fatullayev, President of the Economic Research and Training Center. Speakers included Asif Zeynalov, Chief Accountant at AEM Elektron; Kamran Mammadov, Finance Manager at Green City Group of Companies; and Narmin Qurbanaliyeva, PMS 2 Trainer at IATM MMC.

The discussions focused on recent changes in tax legislation, their impact on businesses and individuals, as well as new tax requirements and their implementation strategies. Participants had the opportunity to ask questions and engage in discussions on the latest tax developments.

Attendees praised the seminar's high-level organization and emphasized the importance of holding similar events in the future.

## “XİDMƏT ÖNCƏSİ MÜƏLLİM TƏLİMİ” MÖVZUSUNDA SEMİNAR

Yanvarın 27-28-də İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə “Xidmət öncəsi müəllim təlimi” (Pre-service Teacher Training) mövzusunda seminar keçirildi. Michael Collins`in təqdimatında baş tutan seminar Xəzər Universitetinin ingilis dili müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdu.

Seminarın ilk günü sinfin idarə olunması, dərslər zamanı müəllim xarakterinin ortaya qoyulması, sinif müzakirələrinin uğurlu təşkili məsələlərinə toxunuldu. Digər gün isə dərsin düzgün planlaması, lüğətin təcrübi olaraq öyrədilməsi, təhsildə davamlılığın təmin edilməsi ilə bağlı söhbət aparıldı.

## SEMINAR ON "PRE-SERVICE TEACHER TRAINING"

On January 27-28, the Department of English Language and Literature organized a seminar on "Pre-service Teacher Training." The seminar, presented by Michael Collins, was designed for students studying English Language Teaching at Khazar University.

The first day of the seminar addressed classroom management, teacher persona development during lessons, and successful organization of classroom discussions. The second day focused on proper lesson planning, practical vocabulary teaching, and ensuring educational continuity.

## MÜƏLLİMLƏR ÜÇÜN TƏLİM

Yanvarın 30-da İngjlis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə departamentin müəllimi Eynur Mehdiyev müəllimlər üçün təlim keçirdi. Təlimdə ingilis dilinin tədrisi metodları və kommunikativ dilin öyrədilməsi, ikinci dilin mənimsənilməsi nəzəriyyələrinin təcrübədə tətbiqi mövzularına toxunuldu.

Təlimin sonunda müəllimlərə paylanan sorğu vərəqlərində təlimlə bağlı müsbət rəy bildirildi.

## TRAINING FOR TEACHERS

On January 30th, the Department of English Language and Literature organized a training session conducted by department instructor Eynur Mehdiyev for teachers. The training covered topics including English language teaching methods, communicative language teaching, and the practical application of second language acquisition theories.

At the conclusion of the training, feedback forms distributed to the teachers indicated positive responses regarding the session.



BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev yanvarın 31-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən "Fransa və Ermənistan-Azərbaycan münaqişəsi" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

Açılış nitqi ilə çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev ikitərəfli münasibətlərdə soyuqluq yaradan tərəfin Fransa olduğunu diqqətə çatdırıb. F.Şəfiyev ikitərəfli münasibətlərdəki böhrana baxmayaraq, akademik sahədə əlaqələrin inkişafının, Fransa ilə bağlı araşdırmaların davam etdirilməsi və fransız dilinin öyrənilməsinin vacibliyini vurğuladı.

BMTM-in İdarə Heyətinin üzvü Gülşən Paşayevanın moderatorluğu ilə keçirilən "Fransanın Ermənistan-Azərbaycan münaqişəsində rolu" mövzusuna həsr olunan birinci panel sessiyada Lazur Sahili Universitetinin (“Côte d'Azur”) ictimai hüquq üzrə professoru Kristian Vallar, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Tural Gəncəliyev, “Conflicts” jurnalının direktoru Gil Mihaeli və Bakı Dövlət Universitetinin professoru Məmmədağa Baxışovun çıxışları dinlənildi.

BMTM-in şöbə müdiri, Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Vasif Hüseynovun moderatorluğu ilə keçirilən ikinci sessiyada Azərbaycan Respublikası Milli Məclisinin deputatı Asim Mollazadə, müstəqil araşdırmaçı, “EurasiaPeace” beyin mərkəzinin təsisçisi Morgan Kalley, Karlton Universitetinin Avropa, Rusiya və Avrasiya Araşdırmaları İnstitutunun baş tədqiqatçısı Robert Katler və Strasburq Vəkillər Kollegiyasının hüquqşünası və Fransadakı Mədəniyyət Araşdırmaları İnstitutunun həmtəsisçisi Jan Emmanuel Medina çıxış etmişlər.

## HEAD OF DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

On January 31, Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy, attended to the International Conference organized by the Center of Analysis of International Relations (AIR Center), titled “France and the Armenia-Azerbaijan conflict.”

In his introductory remarks, Chairman of the Board of the AIR Center, Farid Shafiyev, stressed that the cool down in the bilateral relations is solely the responsibility of France. Farid Shafiyev also emphasized the importance of developing contacts in the academic sphere, continuing research about France, and learning the French language, notwithstanding the crisis in bilateral relations. Moderated by AIR Center’s Board Member Gulshan Pashayeva, the first panel on “France’s role in the Armenia-Azerbaijan conflict” saw speeches by Cote D’Azur University’s public law professor Christian Vallar, Member of Azerbaijani Parliament Tural Ganjaliyev, “Conflicts” journal director Gil Mihaely, and Baku State University’s professor Mammadaga Bahishov. After a brief overview, Gulshan Pashayeva drew attention to France’s unsuccessful and fruitless OSCE Minsk Group co-chairing. AIR Center’s Head of Department and Lecturer of the Department of Political Science and Philosophy at Khazar University, Vasif Huseynov moderated the second panel, during which Member of Azerbaijani Parliament Asim Mollazade, independent researcher and founder of the “EurasiaPeace” think tank Morgan Caillet, senior research fellow at the Institute of European, Russian, and Eurasian Studies at Carleton University in Ottawa (Canada), Robert Cutler, and lawyer from the Strasbourg Bar and co-founder of the French Institute for Culture Jean-Emmanuel Medina shared their thoughts.

*Link: https://azertag.az/xeber/bakida_fransa_ve_ermenistan_azerbaycan_munaqisesi_movzusunda_beynelxalq_konfrans_teskil_olunub_video-3398383*

# AVSTRALİYADA SİYASƏTÇİ TRAMPIN ŞƏRƏFİNƏ SOYADINI DƏYİŞİB



Avstriyalı siyasətçi ABŞ Prezidenti Donald Trampın şərəfinə rəsmi olaraq soyadını dəyişib.

"Report" xəbər verir ki, bu barədə "Sky News" məlumat yayıb.

"Qərbi Avstraliyanın parlamentinin yuxarı palatasının müstəqil deputatı Ben Dokinz ABŞ Prezidenti Donald Trampdan ilhamlanaraq, rəsmi şəkildə soyadını Ostin Tramp olaraq dəyişdirib", - nəşr qeyd edib.

Siyasətçinin sözlərinə görə, bu addım hazırda parlamentdə çoxluğa malik olan mərkəzçi-sol Leyborist Partiyasına qarşı etiraz aktı olub. Parlamentin rəsmi saytında o, artıq "avstraliyalı Tramp" kimi qeyd olunub.

Siyasətçi, həmçinin adının dəyişdirilməsini təsdiqləyən sənədin fotoşəklini də dərc edib.

*7 Fevral 2025*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi